RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 199 (8792) ŞƏNBƏ, 18 sentyabr 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# İlham Əliyevin Müzəffər Ordusu düşmənə gözdağıdır

## Birgə təlimlər Azərbaycan Silahlı Qüvvələrinin qüdrətini, gücünü daha da artırır

**Vətən müharibəsindəki şanlı qələbədən sonra dünya Azərbaycan Ordusunun gücünün, qüdrətinin şahidi oldu. Bir daha bəlli oldu ki, Müzəffər Ali Baş Komandan İlham Əliyev son 18 ildə dünyanın ən güclü ordularından birini formalaşdırıb.**

Lakin buna baxmayaraq, bu gün də ordumuzun beynəlxalq standartlara uyğun daha da gücləndirilməsi, modernləşdirilməsi prioritet olaraq qalır. Ordumuzun bütün bölmələrində hərbçilər üçün yüksək sosial-məişət şəraiti yaradılır, arsenalımız ən müasir silah və texnikalarla təchiz edilir. Bütün hərbi hissələr yüksək standartlara cavab verir. Hərbi qulluqçuların ərzaq, qida, geyim təminatı da lazımi səviyyədədir. Bunlarla yanaşı, şəxsi heyətin mənəvi-psixoloji hazırlığı da yüksəkdir. Yaradılan bu imkanlar isə döyüş hazırlığının yüksək səviyyədə təmin olunmasına birbaşa təsir edən amillərdir.

Şəxsi heyətin döyüş vərdişlərinin artırılması mühüm əhəmiyyətə malikdir. Bunun əsasında təlimlər, məşğələlər dayanır. Müntəzəm olaraq hərbi qulluqçuların nəzəri və praktiki biliklərinin təkmilləşdirilməsi, yüksək mənəvi-psixoloji durumu şəxsi heyətin istənilən coğrafi və təbii şəraitdə xidmətə hazırlanmasına yardımçı olur.

2013-cü ildən başlayaraq Azərbaycan və Türkiyə Silahlı Qüvvələri arasında birgə hərbi təlimlərin keçirilməsi isə hər iki ölkənin ordularının döyüş qabiliyyətinin artırılması, silahlı qüvvələr arasında təcrübə mübadiləsinin həyata keçirilməsi, müxtəlif qoşun növlərinin qarşılıqlı fəaliyyətinə nail olmaq baxımından böyük əhəmiyyət kəsb edir. Ona görə də iki ölkənin ordusunun iştirakı ilə keçirilən və bütün qoşun növlərini əhatə edən təlimlərin sayı ildən-ilə artmaqdadır.

İki qardaş ölkə arasında bağlanan hərbi sahədə əməkdaşlıq haqqında sazişə əsasən, hazırda həm Türkiyədə, həm də ölkəmizdə təlimlər keçirilir. İki dövlətin Hərbi Hava Qüvvələrinin iştirakı ilə Konya şəhərində "TurAz Şahini - 2021" birgə taktiki-uçuş təlimləri və işğaldan azad edilmiş Laçın rayonunda birgə döyüş atışlı taktiki təlimləri bunun əyani təsdiqidir.

Ardı 3-cü səh.

# Üç dənizin gerçəkləşən əfsanəsi

## 19 il əvvəl sentyabrın 18-də BTC-nin təməli qoyulmuşdur

**Əsrimizin ilk illərində müharibə şəraitində yaşayan, bir milyon qaçqını-köçkünü olan, iqtisadiyyatı "qədd"ini təzəcə düzəldən bir ölkədə belə nəhəng layihənin gerçəkləşməsi asan məsələ deyildi. Hərçənd BTC-ni hələ o vaxtdan "Üç dənizin əfsanəsi" adlandırırdılar. Əslində isə BTC nə "birləşdirdiyi" üç dənizin, nə dağlarda çatdığı 2800 metrlik zirvələrin, nə də kəsişdiyi 1500 çayın əfsanəsi idi. Bu əfsanəni Heydər Əliyev qüdrəti həqiqətə çevirmişdir!**



Azərbaycanın yeni neft strategiyasının əsas istiqamətlərindən biri ölkənin böyük neftinin dünya bazarlarına nəqli idi. Odur ki, "Əsrin müqaviləsi"ndən sonra növbəti layihələrin həyata keçirilməsi gündəmə gəlirdi. Məqsədin reallaşması üçün Ümummilli Lider Heydər Əliyev ötən əsrin 90-cı illərinin ortalarında özünün mühüm qərarını verdi. Bu, Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin tikilməsi haqqında qərar idi. Kəmərin tikintisinin başlanması üçün bir neçə il ardıcıl iş getdi.

Ardı 4-cü səh.

# Dünyada buğda qıtlığı yaranır

## Bu isə, ilk növbədə, qiymət artımına səbəb olur

Dünyada əhali sayının sürətlə artması bir sıra qlobal problemlərin yaranmasına səbəb olur. Həmin problemlərin içərisində insanların həyatına ən çox təsir edən amil ərzaq çatışmazlığı və qiymətlərinin bahalaşmasıdır ki, bu da dövlətlər üçün ciddi sosial təhdidlər yaradır. Odur ki, ölkələr əhalisinin əlçatan qiymətlərlə ərzaq təminatına səy göstərirlər.

Ərzaq çatışmazlığı böyük risk doğurduğu üçün ərzaq ixracatçısı olan ölkələr bu növ məhsulların satışını nəzarətə alırlar. Çalışırlar ki, şirkətlər yüksək qazanc əldə etmək üçün istehsal etdikləri məhsulun hamısını satmasınlar. Bununla yanaşı, bir çox dövlətlər vəziyyətə nəzarəti əldən verməmək üçün daha çox ərzaq alaraq ehtiyat yaradırlar. Hazırda isə ölkələrin çoxu ən çox risk yaradan ərzaq məhsulu kimi buğdanı görürlər. Bu da səbəbsiz deyil. Dünya üzrə mövcud statistika göstərir ki, ən çox istifadə olunan kənd təsərrüfatı məhsulu məhz buğdadır.

Buğdanın qiymətinin artmasına təsir edən təbii faktorlarla yanaşı, insan amilindən qaynaqlanan süni müdaxilələr də mövcuddur. Belə ki, istehsalçıdan istehlakçıya çatdırılma zəncirindəki qırılmalar, satışla məşğul olan şirkətlərin daha çox qazanc əldə etmək istəyi, üstəlik hökumətlər tərəfindən ixracına qoyulan məhdudiyyətlər son nəticədə buğdanın qiymətinin bahalaşmasına səbəb olur.

Digər tərəfdən təbii amillər də buğdanın qiymətini qaldırır. Beynəlxalq Taxıl Şurasının açıqladığı məlumata görə, cari ilin avqust ayının ortalarınadək dünyada 733 milyon ton buğda istehsal olunub. Keçən il isə həmin dövr dünya üzrə 766 milyon ton buğda istehsal edilmişdi.

Ardı 4-cü səh.

18 Sentyabr Üzeyir Musiqi Günüdür

# Musiqi gününün indi bir başqa təntənəsi var

Dahi azərbaycanlı Üzeyir bəy Hacıbəylinin doğum günü Azərbaycan xalqı üçün milli musiqinin bayram günüdür. Onun 110 illik yubileyi ilində, 1995-ci ildə Ulu Öndər Heydər Əliyev "Üzeyir musiqi gününün keçirilməsi haqqında" fərman imzaladı. Beləliklə, hər il sentyabrın 18-də milli musiqimizin bayram kimi qeyd olunması rəsmiləşdi.

Ancaq hər il bu böyük təntənəyə nisgil qarışır. Təəssüflənirdik ki, Azərbaycanın istedadlı və fədakar övladının ata yurdu erməni təcavüzkarlarının işğalı altındadır. Artıq bu il sevincimiz hədsizdir. Çünki müzəffər Azərbaycan Ordusu Vətən müharibəsində zəfər çalıb, Ermənistan silahlı qüvvələrini otuz ilə yaxın işğal altında saxladıqları torpaqlarımızdan qovub. Odur ki, builki Üzeyir musiqi gününün bir başqa gözəlliyi və təntənəsi var.

18-24 sentyabrda keçiriləcək ənənəvi Üzeyir bəy Hacıbəyli Beynəlxalq Musiqi Festivalı çərçivəsində bir sıra tədbirlərin təşkili nəzərdə tutulub. Tədbirlər Bakıda, Gəncədə, Ağdamda düzənlənəcək. Ənənəvi Üzeyir bəy Hacıbəyli Beynəlxalq Musiqi Festivalının builki ilk konserti isə Şuşada keçiriləcək. Sentyabrın 18-də, Üzeyir musiqi günündə Xalq artisti Ağaverdi Paşayevin rəhbərliyi ilə F.Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı və tanınmış solistlərin iştirakı ilə mədəniyyət mərkəzimiz Şuşada açıq havada konsert təşkil ediləcək.

Ardı 5-ci səh.

# Ermənistan ordusunda xaosun yeni dalğası başlayır

Ermənistan ordusunda xaotik vəziyyət getdikcə dərinləşməkdə, mövcud problemlərin miqyası genişlənməkdədir.

Bu hal erməni ordusunun davam edən genişmiqyaslı təlim-məşq toplanışları fonunda özünü bir daha büruzə verir. Təlimlərlə bağlı birinci mərhələ avqustun 25-də başlayıb və 3 ay ərzində davam edəcək. İkinci mərhələ isə sentyabrın 15-dən icraya yönləndirilib.

Ardı 7-ci səh.

## Günün idman manşeti

# "Qarabağ" UEFA Konfrans Liqasına heç-heçə ilə başladı

# Təkcə qol çatmadı



**"Qarabağ"-"Bazel" qarşılaşmasına maraq həddindən artıq böyük idi. UEFA Konfrans Liqasında H qrupu çərçivəsində keçirilən "Kayrat"-"Omoniya" oyununun qolsuz başa çatması matça marağı daha da artırmışdı.**

Oyun gərgin mübarizə şəraitində keçdi. Qarşılaşmanın ilk 10 dəqiqəsində tərəflər topu özündə daha çox saxlamaqla bir-birilərinin zəif nöqtələrini araşdırmaqla məşğul oldular. Düzdür, ilk dəqiqələrdə qonaqlar daha çox fəal olsalar da, vaxt ötdükcə komandamız üstünlüyü ələ almağa başladı. Hiss edilirdi ki, Qurban Qurbanovun oyun planı işləyir.

Futbolda taktika, oyun planı və s. vacib məsələlərdəndir. Ancaq əzmkarlıq, ruh yüksəkliyi, qələbə qazanmaq istəyi komandaları qarşılaşmaya daha fərqli motivasiya edir.

Ardı 7-ci səh.

## Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının əməkdaşlarının təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının 100 illiyi münasibətilə Azərbaycanda musiqi təhsilinin inkişafında xidmətlərinə görə akademiyanın aşağıdakı əməkdaşları təltif edilsinlər:

**3-cü dərəcəli "Əmək" ordeni ilə**

Acalova Gülnarə Almazovna
Əfəndiyeva İmruz Məmməd Sadıx qızı
Əzimov Aydın Kərim oğlu
İmanova Ülviyyə İsmayıl qızı
Quliyeva Nərminə Əhməd qızı
Məmmədov Tariyel Aydın oğlu
Seyidov Tərlan Mir Əşrəf oğlu

**"Tərəqqi" medalı ilə**

Axundova Könül Tofiq qızı
Axundova Yeganə Əsgər qızı
Ələsgərov Arzu Süleyman oğlu
Əsədova Səbinə Çingizovna
Fərəcov Tahir Heydər oğlu
Həsənov Hidayyət Həsən oğlu
Hüseynova Könül Qabil qızı
İsmayılzadə Nuridə Cəfər qızı
Quliyev Tərlan Aslan oğlu
Məmmədova Sevda Binyatulla qızı
Məmmədova Sevda Əhməd qızı
Musayeva Elmira Danil qızı
Rəhimova Aytac Elxan qızı
Rimazi Nəzakət Hüseyn qızı
Süleymanova Tomrid Kazım qızı.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 sentyabr 2021-ci il*

## Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının əməkdaşlarına Azərbaycan Respublikasının Prezidentinin fərdi təqaüdlərinin verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının 100 illiyi münasibətilə Azərbaycanda musiqi təhsilinin inkişafında xidmətlərinə görə akademiyanın aşağıdakı əməkdaşlarına Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdləri verilsin:

Abbaszadə Nəzmiyyə Müzəffər qızı
Sinamdzqvarişvili Siala Vaxtanqovna
Yaqubova Tahirə Əhəd qızı.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 sentyabr 2021-ci il*

## Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının əməkdaşlarına fəxri adların verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının 100 illiyi münasibətilə Azərbaycanda musiqi təhsilinin inkişafında xidmətlərinə görə akademiyanın aşağıdakı əməkdaşlarına Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Əməkdar incəsənət xadimi"**

Babayeva Rasimə Əhməd qızı
Neymanova Kəmalə İlyas qızı

**"Əməkdar artist"**

Ağayeva Rəna Knyazevna
Məlikova Nigar Akif qızı

**"Əməkdar müəllim"**

Aşumova Samirə Rauf qızı
Bədirxanov Tofiq Nurəli oğlu
Cəfərova Lalə Tahir qızı
Əhədzadə Məleykə Böyükağa qızı
Hacıyeva Firəngiz Alim qızı
Həsənova Cəmilə İsmayıl qızı
Həsənzadə Xatirə Nəriman qızı
Mahmudova Gülzar Rafiq qızı
Mailova Adilə Hüseynovna
Mansurova Nərgiz Nail qızı
Məmmədova Arzu Böyükağa qızı
Məmmədova Arzu Raiz qızı
Məmmədova Leyla Mütalib qızı
Məmmədyarova Gülnarə Hadi qızı
Mirbabayeva Kəmalə Mir Bağır qızı
Nəsirova Könül Yasif qızı
Paşayev Əliheydər Paşa oğlu
Rüstəmova Afaq Adil qızı
Rzayeva Laləxanım Seyid Nağı qızı
Sultanova Fəridə Nurəddin qızı
Tuayeva Mədinə Zaurbəyovna
Yusifova Lətafət Ağa qızı
Zamanova Alya Abas qızı.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 sentyabr 2021-ci il*

# Baş nazir Əli Əsədov Beynəlxalq Astronavtika Federasiyasının prezidenti ilə görüşüb



Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov sentyabrın 17-də Beynəlxalq Astronavtika Federasiyasının prezidenti Paskal Erenfroyndun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycanda yüksək texnologiyaların, kosmik sənayenin inkişafında əldə edilən uğurlar barədə söhbət açılıb.

Bakının 2023-cü ildə Beynəlxalq Astronavtika Konqresinə evsahibliyi etməsinin tarixi əhəmiyyəti vurğulanıb, bunun Azərbaycanın bu sahədə nailiyyətlərinin beynəlxalq kosmik icma tərəfindən tanındığının əyani göstəricisi olduğu bildirilib.

Qeyd edilib ki, Azərbaycan genişmiqyaslı beynəlxalq tədbirlərin keçirilməsində zəngin təcrübəyə malikdir və eyni zamanda, ölkəmizdə müasir infrastruktur mövcuddur. Bütün bunların konqresin ən yüksək səviyyədə keçirilməsi üçün münbit şərait yaratdığı bildirilib, Azərbaycanın bu istiqamətdə lazımi dəstəyin göstərilməsinə hazır olduğu ifadə edilib.

Vurğulanıb ki, Azərbaycan dünyanın kosmik klubunun məhdud sayda olan üzvlərindəndir və ölkəmiz Beynəlxalq Astronavtika Federasiyası ilə əməkdaşlığın genişləndirilməsində maraqlıdır.

Görüşdə həmçinin Azərbaycanın işğaldan azad edilmiş torpaqlarında həyata keçirilən bərpa-yenidənqurma işləri barədə söhbət açılıb, bu prosesdə peyklərin əhəmiyyətli rolu xüsusi qeyd edilib.

# Milli Məclisin Gənclər və idman komitəsinin iclası keçirilib

Sentyabrın 17-də Milli Məclisin Gənclər və idman komitəsinin payız sessiyasında onlayn formatda ilk iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Milli Məclis Sədrinin müavini, komitənin sədri Adil Əliyev növbəti sessiyada deputatlara müvəffəqiyyətlər arzu edərək bildirib ki, gündəliyə ötən müddət ərzində komitənin fəaliyyəti ilə bağlı hesabat və qarşıdakı sessiyanın iş planı daxil edilib. Vitse-spiker diqqətə çatdırıb ki, tarixi Zəfərimizin möhkəmləndirilməsi üçün parlamentin də üzərinə mühüm vəzifələr düşür.

Adil Əliyev 2021-ci ilin yaz və növbədənkənar sessiyalarında görülən işlər barədə məlumat verərək qeyd edib ki, Gənclər və idman komitəsinin üzvləri ötən müddət ərzində səmərəli fəaliyyət göstərib, bu sahədə ölkədə həyata keçirilən islahatlarla bağlı üzərilərinə düşən vəzifələri layiqincə yerinə yetiriblər. Bununla əlaqədar qanunvericilik bazasının təkmilləşdirilməsi istiqamətində də lazımi addımlar atılıb. Bu dövrdə komitənin 10 iclası keçirilib, 13 məsələyə baxılıb. Deputatlarımız müxtəlif aktual mövzulara həsr olunmuş həm ölkədaxili, həm də beynəlxalq səviyyədə bir sıra tədbirlərdə iştirak ediblər. Habelə, yerli və xarici KİV-də çıxış edərək ölkədə gedən proseslər, o cümlədən sosial, iqtisadi, humanitar sahələrdə görülən işlər, əldə edilən nailiyyətlər barədə ictimaiyyəti məlumatlandırıblar.

Diqqətə çatdırılıb ki, hesabat dövründə komitəyə vətəndaşlardan, idarə və təşkilatlardan ümumilikdə 437 məktub, müraciət və sənəd daxil olub. Bundan əlavə, yeni texnologiyaların tətbiqi sayəsində müxtəlif sosial şəbəkələr üzərindən 1000-dən çox müraciət qeydə alınıb. Müraciətlərdə göstərilən məsələlərin böyük əksəriyyəti artıq öz həllini tapıb, bəziləri isə icradadır. Komitə üzvləri fərdi qaydada da vətəndaşların qəbulunu keçiriblər və onları narahat edən məsələlərin bir çoxu müsbət həll olunub.

Komitə sədri bildirib ki, ötən sessiyalarda gənclərlə, idmançılarla, habelə şəhid ailələrinin üzvləri ilə, qazilərlə, Vətən müharibəsində iştirak etmiş digər insanlarla bir sıra görüşlər keçirilib. Görüş iştirakçılarına əldə etdikləri nailiyyətlərə görə müxtəlif mükafatlar, Fəxri fərmanlar təqdim olunub. Komitə üzvləri bir sıra sosial məzmunlu və xeyriyyə tədbirlərində də fəal iştirak ediblər.

Sonra Adil Əliyev komitənin 2021-ci il payız sessiyası üçün iş planı barədə məlumat verib. Bildirilib ki, qarşıdakı sessiyada qanunvericilik təşəbbüsü qaydasında, habelə bəzi qanunlarda dəyişikliklərin olunması ilə bağlı təqdim edilən layihələrə baxılacaq, "Bədən tərbiyəsi və idman haqqında", "Gənclər siyasəti haqqında" və bir sıra digər qanun layihələri müzakirə olunacaq. Qeyd edilib ki, bu sessiyada müxtəlif tədbirlərin keçirilməsi də nəzərdə tutulub. Belə ki, cari ilin "Nizami Gəncəvi ili" elan olunması ilə bağlı maarifləndirmə işinin təşkilində, "Yaşatmaq yaşamaq kimi gözəldir" aksiyasının, "Vətənpərvər məktəblilər" layihəsinin həyata keçirilməsində komitə üzvləri fəal iştirak edəcəklər.

Çıxış edən komitə sədrinin müavini Şahin İsmayılov, deputatlardan Cavid Osmanov, Ülvi Quliyev, Könül Nurullayeva, Sevinc Hüseynova, Mahir Abbaszadə komitənin ötən sessiyalarda fəaliyyəti barədə fikirlərini bildiriblər. Deputatlar ölkəmizdə gənclər siyasəti istiqamətində atılan mühüm addımlardan, reallaşan dövlət proqramlarından bəhs ediblər, gənclərin sağlam, savadlı, vətənpərvər yetişməsi üçün onlara yaradılmış şəraitdən söhbət açıblar və bir sıra təkliflər səsləndiriblər.

Onlayn iclasda komitə üzvləri Elnur Allahverdiyev, Müşfiq Cəfərov, Jalə Əhmədova, Etibar Əliyev, Ramil Həsən, Vüqar İskəndərov, Cəbi Quliyev iştirak ediblər.

# *Ceyhun BAYRAMOV:* "Azərbaycan BMT və onun ixtisaslaşmış qurumları ilə əməkdaşlığa əhəmiyyət verir"



Sentyabrın 17-də xarici işlər naziri Ceyhun Bayramov BMT-nin İnkişaf Proqramının Azərbaycanda rezident nümayəndəsi Alessandro Frakassetti ilə ölkəmizdəki fəaliyyət müddətinin başa çatması münasibətilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazir Ceyhun Bayramov rezident nümayəndəsinin Azərbaycandakı uğurlu fəaliyyətini qeyd edərək, bu xüsusda Alessandro Frakassettiyə təşəkkürünü bildirib.

Ölkəmizin BMT və onun ixtisaslaşmış qurumları ilə əməkdaşlığa əhəmiyyət verdiyini söyləyən nazir Ceyhun Bayramov BMT-nin İnkişaf Proqramı ilə əlaqələrimizi xüsusilə vurğulayıb.

AlessandroFrakassettinin fəaliyyəti müddətində bir sıra sahələrdə, xüsusilə də dayanıqlı inkişaf məqsədlərinin həyata keçirilməsi ilə bağlı görülən işləri məmnunluqla qeyd edən nazir gələcəkdə bu əməkdaşlığın daha da genişləndirilməsi imkanlarının olduğunu bildirib.

Alessandro Frakassetti öz növbəsində fəaliyyəti müddətində ona göstərilən diqqətə görə təşəkkürünü bildirərək hökumət tərəfindən BMTİP-in mandatına verilən dəstəyi yüksək qiymətləndirib. 1992-ci ildən etibarən Azərbaycanda fəaliyyət göstərən BMTİP-in bu müddət ərzində bir sıra sahələrdə, o cümlədən həssas qrupların dəstəklənməsi, peşə təhsili, iqlim dəyişikliyi, yaşıl iqtisadiyyat, kəndlərin inkişafı, gənclərin işlə təmin olunması və sair proqramların uğurla həyata keçirildiyini qeyd edib. BMTİP-in, həmçinin münaqişə sonrası minadan təmizləmə fəaliyyətinə də dəstək verdiyi qeyd olunub.

BMTİP proqramının növbəti rezident nümayəndəsi ilə əməkdaşlığın yüksək səviyyədə davam edəcəyinə əminliyini bildirən nazir Ceyhun Bayramov A.Frakassettiyə gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

# Parlamentdə məişət və uşaqlara qarşı zorakılığın qarşısının alınmasının qanunvericilikdə gücləndirilməsi təklif edilib

**Sentyabrın 17-də Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsi payız sessiyasında ilk iclasını keçirib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, onlayn formatda keçirilən iclasda gündəlik barədə komitənin sədri Hicran Hüseynova məlumat verib.

H.Hüseynova əvvəlcə Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin 2021-ci ilin yaz və növbədənkənar sessiyası ərzində gördüyü işlər barədə hesabatı təqdim edib. Bildirilib ki, Ailə, qadın və uşaq məsələləri komitəsinin hesabat dövründə keçirilən 13 iclasında 21 məsələyə baxılıb. Həmçinin komitədə "Gənc ailələrlə bağlı mövcud vəziyyət: imkan və çətinliklər", "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" qanunun icra vəziyyəti: imkan və çətinliklər" və "Azərbaycan Ailə Strategiyasının formalaşması hüquq müstəvisində" mövzularında üç dinləmə keçirilib.

Bundan başqa, sessiya ərzində komitə sədri və üzvləri təmsil olunduqları parlamentlərarası əlaqələr üzrə işçi qrupları, beynəlxalq təşkilatların nümayəndələri ilə onlayn qaydada görüşlər keçiriblər, müzakirələr aparıblar, regionda baş verən hadisələr barədə reallıqları, ölkəmizin haqlı mövqeyini dünya ictimaiyyətinə çatdırıblar.

Hesabat dövründə komitəyə vətəndaşlardan 351 müraciət daxil olub. Həmin müraciətlərdə vətəndaşların qaldırdığı məsələlərlə bağlı 153 məktub hazırlanaraq aidiyyəti qurumlara göndərilib və digər müvafiq tədbirlər görülüb.

İclasda, həmçinin Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin 2021-ci ilin payız sessiyasının işlər planı müzakirə edilib. H.Hüseynova qarşıdakı sessiyanın iş planının deputatların təklifləri üçün açıq olduğunu bildirib.

Müzakirəyə çıxarılan digər məsələ - "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" və "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi ilə bağlı komitə sədri məlumat verib. Qeyd edilib ki, artıq qanunvericilik aktlarında təqaüdlə müavinətlər birləşdirildiyi və təqaüd artırıldığına görə, həmçinin valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar tam dövlət təminatına alındığı üçün qanunlara bu dəyişikliklər təklif edilib.

Müzakirə olunan məsələlərlə bağlı Ailə, qadın və uşaq məsələləri komitəsi sədrinin müavini Jalə Əliyeva, komitə üzvləri Tamam Cəfərova, Pərvin Kərimzadə, Ramin Məmmədov, Sevil Mikayılova, Sədaqət Vəliyeva, Rəşad Mahmudov, Könül Nurullayeva və Nigar Arpadarai çıxış ediblər.

Deputatlar komitənin ötən sessiyadakı işi və payız sessiyasının iş planı barədə fikirlərini bildiriblər. Diqqətə çatdırılıb ki, komitə üzvləri hesabat müddətində karantin qaydalarına əməl etməklə seçicilərlə sıx əlaqə saxlayıblar, ictimai-siyasi proseslərdə fəallıq göstəriblər, bir çox məsələlərlə bağlı mətbuatda çıxış ediblər.

Komitə üzvləri payız sessiyasının işlər planına ailə məsələləri, qadın və uşaq hüquqları ilə bağlı dinləmələrin salınması, həmçinin ailə dəyərlərinin qorunmasının, qadınların məşğulluğunun təmin olunması, məişət zorakılığının və uşaqlara qarşı zorakılığın qarşısının alınmasının qanunvericilikdə gücləndirilməsi, bu sahədə cəzaların sərtləşdirilməsi ilə bağlı təkliflərini irəli sürüblər.

Sonda müzakirə edilən qanun layihələri Milli Məclisin plenar iclasına tövsiyə olunub.

İclasda deputat Rauf Əliyev, Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev və digər rəsmi şəxslər iştirak ediblər.

# Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsində 4 məsələyə baxılıb

Sentyabrın 17-də Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin payız sessiyasında ilk iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, videokonfrans formatında keçirilən iclasda 4 məsələyə baxılıb. Komitə sədri Sadiq Qurbanov əvvəlcə Milli Məclisin 2021-cı ilin yaz və növbədənkənar sessiyaları dövründə Təbii ehtiyatlar, energetika və ekologiya komitəsində görülən işlər barədə hesabatı təqdim edib. Bildirib ki, hesabat dövründə komitədə keçirilən 16 iclasda 18 məsələyə baxılıb. Əsasən mövcud qanunvericilik aktlarına dəyişikliklərdən ibarət olan bir sıra qanun layihələri, həmçinin "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" və "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" qanun layihələri komitədə üç oxunuşda müzakirədən keçərək Milli Məclisdə qəbul edilib.

Yaz sessiyasında bu komitədə baxılan mühüm əhəmiyyətli qanun layihələrindən biri də "Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında Xəzər dənizində "Dostluq" yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənməsi və mənimsənilməsi haqqında" Anlaşma Memorandumunun təsdiq edilməsi məsələsi olub.

İclasda S.Qurbanov onu da nəzərə çatdırıb ki, hesabat dövründə komitənin təşəbbüsü ilə Milli Məclisdə "Vətən müharibəsindən sonra işğaldan azad edilmiş ərazilərdə ekoloji vəziyyət, perspektiv layihələr və innovativ Qarabağ" mövzusunda onlayn konfrans keçirilib. Həmçinin işğaldan azad edilmiş Azərbaycan ərazilərində ətraf mühitə və təbiətə qarşı mənfur düşmənin törətdiyi ekoloji terrorla bağlı dünya ölkələrinin parlamentlərinə, ətraf mühit və ekologiya sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlara və beynəlxalq konvensiyaların katibliklərinə, beynəlxalq ekoloji qeyri-hökumət təşkilatlarına və fondlarına hesabat dövründə çoxsaylı müraciətlər göndərilib.

Sessiyalar ərzində komitə üzvləri KİV-də müntəzəm çıxışlar ediblər, Milli Məclisin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının işində fəallıq göstəriblər.

Cari ilin yaz və növbədənkənar sessiyalarında komitəyə daxil olan 287 müraciətə baxılıb, tədbir görülməsi üçün aidiyyəti təşkilatlara göndərilib. Əksər müraciətlərin həllinə nail olunub. Hesabat dövründə komitə sədri tərəfindən parlamentdə və yerlərdə 56 görüş keçirilib, vətəndaşlar tərəfindən edilən 313 şifahi müraciətə də həssaslıqla yanaşılıb.

Sonra Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin 2021-ci ilin payız sessiyası üçün nəzərdə tutulan qanunvericilik işlərini və müxtəlif səpkili tədbirləri əhatə edən iş planı müzakirə olunub. İş planında aidiyyəti qurumlarla birgə həyata keçiriləcək tədbirlər sırasında "Azərbaycan Respublikasında bərk məişət tullantılarının idarə edilməsinin təkmilləşdirilməsinə dair 2018-2022-ci illər üçün Milli Strategiya" çərçivəsində Suraxanı poliqonunda tullantıların idarə olunması ilə bağlı tədbirlərin, eləcə də Hacıqabul gölünün mövcud vəziyyəti və bərpası istiqamətində işlərin görülməsi üçün komitə üzvlərindən ibarət komissiyanın təşkili, qlobal iqlim dəyişikliyinin Azərbaycana təsiri ilə bağlı dinləmələrin keçirilməsi, su problemi və suyun keyfiyyəti barədə müzakirələrin təşkili, işğaldan azad edilmiş ərazilərimizdə ekoloji vəziyyətin təhlili və digər bu kimi mühüm məsələlərin də yer alması razılıqla qarşılanıb.

Onlayn iclasda gündəlikdəki növbəti məsələni təqdim edən deputat Sadiq Qurbanov birinci oxunuşda müzakirəyə çıxarılmış "Azərbaycan Respublikasının Mülki Məcəlləsində, "Müflisləşmə və iflas haqqında", "İcra haqqında", "Banklar haqqında", "Teatr və teatr fəaliyyəti haqqında", "Sığorta fəaliyyəti haqqında", "İxrac məqsədli neft-qaz fəaliyyətinə xüsusi iqtisadi rejimin tətbiqi haqqında" və "Məşğulluq haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" qanun layihəsini ətraflı şərh edib. Komitə sədrinin məlumatı dinlənildikdən sonra fikir mübadiləsi aparılıb, yekunda bu qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

Onlayn iclasda aparılan müzakirələrdə komitə sədrinin müavini Asim Mollazadə, deputatlar Nəsib Məhəməliyev, Məşhur Məmmədov, Naqif Həmzəyev, İltizam Yusifov, Afət Həsənova gündəlikdəki məsələlərə münasibət bildiriblər, komitənin işi ilə bağlı rəy və təkliflərini diqqətə çatdırıblar.

Komitənin iclasında deputat Əliabbas Salahzadə, Milli Məclis Aparatı rəhbərinin müavini Yaşar Əməşov da iştirak ediblər.

# *Leyla ABDULLAYEVA:* "Beynəlxalq hüquq çərçivəsində ədaləti təmin edəcəyik"

"Azərbaycan tərəfindən cari ilin yanvar ayında Avropa İnsan Hüquqları Məhkəməsində Ermənistana qarşı qaldırılan iddiaya əlavə olaraq, yaxın günlərdə Azərbaycan irqi ayrı-seçkiliyin bütün formalarının ləğvi haqqında Beynəlxalq Konvensiyanın (ICERD) sistematik şəkildə pozulmasına görə Ermənistanı məsuliyyətə cəlb etmək üçün məhkəməyə müraciət edəcək".

AZƏRTAC xəbər verir ki, bunu Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva KİV-in Ermənistana qarşı beynəlxalq məhkəmə işlərindəki son vəziyyətlə bağlı sualını cavablandırarkən deyib.

"Ərazilərimizin bir hissəsinin Ermənistan tərəfindən işğalına son verildikdən sonra azərbaycanlılara qarşı insan hüquqlarının kobud şəkildə pozulmasına dair faktlar tərəfimizdən diqqətlə toplanmış və sənədləşdirilmişdir. Buraya Ermənistanın azərbaycanlıları etnik mənşəyinə görə zor gücünə qovması, işgəncə verməsi, öldürməsi və qəddar rəftar etməsi halları daxildir. Bir milyondan çox azərbaycanlı Ermənistanın təcavüzü nəticəsində evlərindən zorla qovulmuşdur. Azərbaycanın şəhərləri tamamilə yer üzündən silinmişdir. Üçtərəfli Bəyannamənin imzalanmasından sonra Ermənistan keçmiş işğal olunmuş ərazilərdə minaların basdırılması vasitəsilə azərbaycanlı məcburi köçkünlərin evlərinə geri dönüşünün qarşısını alaraq və minalanmış ərazilərin xəritələrini Azərbaycana verməkdən imtina etməklə ICERD-ni pozmağa davam etdi.

Biz Ermənistan tərəfindən ICERD-in müddəalarının kobud şəkildə pozulması ilə əlaqədar beynəlxalq hüquq çərçivəsində ədaləti təmin edəcəyik", - deyə Leyla Abdullayeva vurğulayıb.

# Rusiya Bakı və Yerevana sərhədlərin delimitasiyası və demarkasiyası ilə bağlı təkliflərini təqdim edib

Rusiya Ermənistan-Azərbaycan sərhədinin delimitasiyası və demarkasiyası prosesi ilə bağlı təkliflərini Bakı və Yerevana təqdim edib.

AZƏRTAC xəbər verir ki, bu barədə Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova Moskvada keçirdiyi brifinqdə bildirib.

"Biz Ermənistanla Azərbaycan arasındakı sərhədin ayrı-ayrı hissələrində vəziyyəti yaxından izləyirik. Vəziyyətin inkişafı, o cümlədən Vorotan kəndi yaxınlığında, bir daha təsdiqləyir ki, Ermənistan-Azərbaycan sərhədinin sonrakı bütün boyunca demarkasiyası ilə bağlı prosesin tezliklə başlamasına ehtiyac var. Bununla bağlı Rusiyanın təklifləri həm Bakıya, həm də Yerevana təqdim edilib, biz gələcək kursun formalaşdırılması üçün təcili olaraq cavab gözləyirik", - deyə diplomat vurğulayıb.

M.Zaxarovanın sözlərinə görə, Rusiya tərəfi 2020-ci ilin noyabrında və 2021-ci ilin yanvarında ən yüksək səviyyədə əldə edilən üçtərəfli razılaşmaların icrasına müvafiq olaraq bölgədə iqtisadi və nəqliyyat əlaqələrini paralel inkişaf etdirmək üçün Azərbaycan və Ermənistanla birgə səylərini davam etdirəcək.

# Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş

Sentyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrımın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ali Məclisin Sədri nümayəndə heyətini salamlayıb, Naxçıvanın türk dünyasının mərkəzində yerləşdiyini və mühüm əhəmiyyətə malik olduğunu vurğulayıb. Ölkələrimiz arasındakı qardaşlıq və strateji tərəfdaşlıq münasibətlərindən danışan Ali Məclisin Sədri Mustafa Kamal Atatürkün "Azərbaycanın kədəri bizim kədərimiz, sevinci bizim sevincimizdir" və Ümummilli Lider Heydər Əliyevin "Azərbaycan-Türkiyə bir millət, iki dövlətdir" kəlamlarının Azərbaycan-Türkiyə münasibətlərinin mahiyyətini ifadə etdiyini bildirib və İkinci Qarabağ müharibəsində Türkiyənin göstərdiyi siyasi dəstəyə diqqəti çəkib.

Azərbaycan-Türkiyə əlaqələrinin türk cümhuriyyətlərinin birliyinə xidmət etdiyini bildirən Ali Məclisin Sədri Türkiyə Böyük Millət Məclisində Azərbaycanla bağlı müzakirə olunan bütün məsələlərin yekdilliklə qəbul edilməsinə görə nümayəndə heyətinə təşəkkür edib.

Səmimi qəbula görə minnətdarlıq edən Şamil Ayrım nümayəndə heyətinin Naxçıvan Muxtar Respublikasına səfərinin önəmini vurğulayıb və 44 günlük Vətən müharibəsindən sonra Naxçıvanda olmaqdan məmnunluğunu bildirib. İkinci Qarabağ müharibəsində qazanılan tarixi Qələbə münasibətilə təbriklərini çatdıran qonaq ölkələrimiz arasındakı ikitərəfli münasibətləri diqqətə çatdırıb, Naxçıvan Muxtar Respublikası ilə əlaqələrin bu baxımdan əhəmiyyətini qeyd edib.

Sonda xatirə şəkli çəkdirilib.

Türkiyənin Naxçıvandakı Baş konsulu Məhmət Emin Kiraz görüşdə iştirak edib.

# *Xristian Liderlər Konqresinin prezidenti:* "Cəbrayılda erməni vandalizminin acı nəticələri, dağıntılar məni dəhşətə gətirdi"

Sentyabrın 17-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı Xristian Liderlər Konqresinin prezidenti, ABŞ-ın Beynəlxalq Dini Azadlıq üzrə Komissiyasının sabiq müvəkkili Conni Mur ilə görüşüb.



DQİDK-dən AZƏRTAC-a bildirilib ki, görüşdə M.Qurbanlı ölkəmizdə multikultural, tolerant ənənələrə verilən dəyər və dinlərarası harmoniya haqqında ətraflı məlumat verib. Bildirilib ki, ölkədəki dini durumun sabitliyi, tolerantlığın səviyyəsinin yüksək olması, dini əqidəsinə görə vətəndaşlar arasında heç bir ayrı-seçkiliyin olmaması qeyri-islam dini qurumların fəaliyyətinə əlverişli şərait yaradır. Azərbaycanda 37 qeyri-islam dini qurumun dövlət qeydiyyatına alındığını diqqətə çatdıran komitə sədri islam təmayüllü dini icmalarla yanaşı onlara da dövlət büdcəsindən maddi yardım göstərilməsinin artıq ənənəyə çevrildiyini qeyd edib.

Söhbət zamanı ABŞ-ın Beynəlxalq Dini Azadlıq üzrə Komissiyasının bu yaxınlarda yaydığı arayışa da toxunan M.Qurbanlı sənəddə heç bir fakta söykənməyən qərəzli mövqe sərgiləndiyini diqqətə çatdırıb. Vurğulanıb ki, 44 günlük Vətən müharibəsi zamanı Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu şanlı Qələbə qazanaraq 30 il davam edən işğala son qoydu, ərazi bütövlüyünü bərpa etdi. Ermənistanın işğal dövründə torpaqlarımızda etnik təmizləmə və soyqırımı həyata keçirməsi, Azərbaycan toponimlərini erməniləşdirməsi, yüzlərlə tarixi-mədəni abidə ilə yanaşı, mövcud olan 60-dan çox məscidi, 200-ə yaxın ziyarətgahı dağıtması və yarımuçuq məscidlərdə heyvan saxlamaqla dini dəyərləri təhqir etməsi, eləcə də Qafqaz Albaniyası mədəni irsinə və pravoslav kilsəsinə aid olan xristian məbədlərində saxtalaşdırma işləri görərək qriqoryanlaşdırması və ya dağıtması barədə faktların sözügedən arayışda yer almaması ilə yanaşı, əsassız iddiaları irəli sürməsi təəssüf doğurur. DQİDK sədri hesabatların daha obyektiv və dürüst tərtib edilməsi, real vəziyyətlə tanış olmaları üçün ABŞ-ın Beynəlxalq Dini Azadlıq üzrə Komissiyasının üzvlərinin ölkəmizə səfər etmələrinin zəruriliyinə də toxunub.

Xristian Liderlər Konqresinin prezidenti Conni Mur ölkəmizə səfəri çərçivəsində Cəbrayılda olarkən erməni vandalizminin acı nəticələrini, dağıntıları öz gözləri ilə gördüyünü və bu mənzərədən dəhşətə gəldiyini bildirib. O, eyni zamanda işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən bərpa-quruculuq işlərini sevinclə qarşıladığını deyib. Ölkəmizə səfərləri zamanı daim xalqımızın yüksək tolerant və multikultural mənəviyyatının, cəmiyyətdə müxtəlif dinlərin nümayəndələri arasında ümumi dostluq mühitinin canlı şahidi olduğunu diqqətə çatdırıb.

Görüşün sonunda qonağa ölkəmizdəki dini tolerantlıq mühitini özündə əks etdirən xatirə hədiyyəsi təqdim edilib.

# Azərbaycanda Sosial Sahibkarlıq Forumu olub




Sentyabrın 17-də Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) və Dövlət Məşğulluq Agentliyinin dəstəyi, KOBİA yanında İctimai Şuranın təşkilatçılığı və "Əlil Sahibkarlar Təşkilatı" İctimai Birliyinin tərəfdaşlığı ilə "Azərbaycanda sosial sahibkarlıq: mövcud vəziyyət və perspektivlər" mövzusunda forum keçirilib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, tədbirdə aidiyyəti dövlət qurumları, biznes assosiasiyaları və ictimai birliklərin nümayəndələri, sosial sahibkarlıqla məşğul olan və ya biznes fəaliyyətinə maraq göstərən Vətən müharibəsi qaziləri və əlilliyi olan şəxslər iştirak ediblər.

Forumda sosial sahibkarlığın əhəmiyyəti, bu sahənin ölkəmizdə inkişafı və təşviqi istiqamətində görülən işlər barədə fikir mübadiləsi aparılıb, iştirakçıların təklifləri dinlənilib, sualları cavablandırılıb.

Forumun moderatoru KOBİA yanında İctimai Şuranın sədri Fərhad Qaraşov sosial baxımdan həssas qruplar üçün layiqli məşğulluq və gəlir imkanlarının formalaşdırılmasının, onların cəmiyyətə hərtərəfli inteqrasiyasının, sosial sahibkarlığın təşviqinin ölkəmizdə prioritet istiqamətlərdən olduğunu qeyd edib, forumun sosial sahibkarlıq sahəsində mövcud vəziyyətin və müvafiq təkliflərin öyrənilməsi məqsədilə təşkil edildiyini bildirib.

Tədbirdə çıxış edən əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev həssas əhali qruplarının, əlilliyi olan şəxslərin əmək bazarına çıxışı və məşğulluq, kiçik biznesə yiyələnmək imkanlarının artırılması üçün aparılan işləri diqqətə çatdırıb. Qeyd olunub ki, bu ilin yanvar-avqust ayları ərzində 900 əlilliyi olan şəxs həm kvota, həm də ictimai işlər proqramı üzrə işlə təmin edilib, 1045 nəfər əlilliyi olan şəxs özünüməşğulluq üzrə təlimlərə cəlb olunub. Azərbaycan Banklar Assosiasiyası ilə birgə həyata keçirilən "Özünüməşğulluğa dəstək" layihəsi çərçivəsində 2020-ci ildə 1015, bu il isə 251 nəfər, BMT-nin İnkişaf Proqramı ilə birgə layihə üzrə 40 nəfər aktivlərlə təmin olunub. "Azərbaycanda məşğulluğa dəstək" layihəsi çərçivəsində 2500 vətəndaş Dünya Bankı ilə birgə təlimlərə cəlb edilib. Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyinin "Sosial bağlar" layihəsi üzrə 625 aztəminatlı ailə üçün bağçılıq təsərrüfatları yaradılıb.

Sahil Babayev bildirib ki, Vətən müharibəsi şəhidlərinin ailə üzvlərinin və qazilərin işlə təminatı məqsədilə nazirlik tərəfindən başlanılan "Məşğulluq marafonu"na indiyədək 505 işəgötürən qoşularaq 2446 vakansiya təqdim edib. Həmin vakansiyalar üzrə işlə təmin olunanların sayı 702-yə çatıb. Nazir özəl sektorun, sosial tərəfdaşların ölkəmizdə şəhid ailələri və müharibə əlillərinin, digər həssas qrupların rifah halının yaxşılaşdırılması, onların mənzil və fərdi evlə, avtomobillə təminatı işlərinə korporativ sosial məsuliyyət çərçivəsində göstərdikləri dəstəyi, həmçinin aztəminatlı ailələrə, həssas qruplara aid şəxslərə ərzaq dəstəyini də qeyd edib.

KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov sosial sahibkarlığın təşviqinin, əlilliyi olan şəxslər və gənclər arasında sahibkarlığın inkişafına dəstək göstərilməsinin agentliyin fəaliyyət istiqamətlərindən olduğunu vurğulayıb, bu sahədə KOBİA-nın gördüyü işlər barədə məlumat verib. Qeyd olunub ki, KOBİA özünüməşğulluq proqramına dəstək göstərir və ötən dövrdə 400-dən çox vətəndaşın proqrama qoşulmasına KOBİA tərəfindən dəstək təmin edilib. Əlilliyi olan şəxslərin özünüməşğulluq proqramına cəlb edilməsi üçün təlimlərə cəlb olunur. Agentlik tərəfindən əlilliyi olan şəxslərin əl işlərinin satışına müxtəlif sərgilər çərçivəsində dəstək göstərilib. KOBİA "Əlil Sahibkarlar Təşkilatı" İctimai Birliyi ilə səmərəli əməkdaşlıq edir. Vətən müharibəsi qazilərinin və şəhid ailələrinin üzvlərinin işlə təmin edilməsinə dəstək məqsədilə başlanılan "Məşğulluq marafonu"nu çərçivəsində KOBİA-nın çağırışına qoşulan 190 sahibkarlıq subyekti tərəfindən 345 vakant iş yeri çıxarılıb. İndiyədək 38 sahibkarlıq subyekti tərəfindən 73 nəfər işlə təmin edilib. Orxan Məmmədov bu xeyirxah aksiyaya dəstək göstərən bütün sahibkarlara təşəkkür edib, eləcə də sosial sahibkarlığın inkişafı və bu sahədə müvafiq qurumlarla əməkdaşlığa dair müxtəlif təkliflər səsləndirib.

"Əlil Sahibkarlar Təşkilatı" İctimai Birliyinin sədri Mirzə Məmməd Vəliyev çıxışında sosial sahibkarlıq sahəsində mövcud vəziyyətə, həssas kateqoriyadan olan şəxslərə dövlət tərəfindən göstərilən diqqət və qayğı, görülən tədbirlər nəticəsində əlilliyi olan şəxslərin cəmiyyətə inteqrasiyası, onların aktiv məşğulluğa cəlb edilməsi tədbirləri, əlilliyi olan şəxslərin əldə etdikləri nailiyyətlər barədə fikirlərini və təkliflərini bölüşüb.

Forum çərçivəsində əlilliyi olan şəxslərin əl işlərindən ibarət sərgi təşkil olunub.

# Azərbaycan Ombudsmanı İƏT Ombudsmanlar Assosiasiyasının nümayəndə heyəti ilə birgə Ağdamda faktaraşdırıcı missiya həyata keçirib

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyevanın dəvəti ilə ölkəmizdə səfərdə olan İslam Əməkdaşlıq Təşkilatının Ombudsmanlar Assosiasiyasının (İƏT OA) prezidentinin rəhbərlik etdiyi və assosiasiyanın Baş katibi müşavirinin iştirakı ilə nümayəndə heyəti işğaldan azad olunmuş ərazilərimizə səfər edib, faktaraşdırıcı missiya həyata keçirib. Faktaraşdırıcı missiya Ombudsman Səbinə Əliyeva və Aparatın əməkdaşları ilə birgə reallaşıb.



AZƏRTAC xəbər verir ki, faktaraşdırıcı səfərin əsas məqsədi işğaldan azad edilən Azərbaycan torpaqlarında yerində araşdırmalar aparmaq, sübutlar toplamaq və əldə edilən nəticələr əsasında hesabat hazırlayaraq beynəlxalq təşkilatlara göndərməkdir.

Səfər çərçivəsində Ağdamda Ermənistan tərəfindən işğal dövründə dağıdılmış yaşayış binalarına, mülki obyektlərə, dini, mədəni və tarixi abidələrə baxış keçirilib. Pənahəli xanın məqbərəsi, Ağdam Cümə və Qiyaslı məscidləri, eyni zamanda şəhərdə dağıntılara məruz qalmış digər mədəni və sosial obyektlərlə bağlı yerində araşdırma aparılıb.

Müvəkkil və İƏT Ombudsmanlar Assosiasiyasının nümayəndə heyəti Ağdamda minalanmış əraziyə də baxış keçiriblər. Qonaqlara mina və digər partlayıcı qurğuların insanların həyat və sağlamlığına yaratdığı ciddi təhlükə, eyni zamanda mina qurbanları ilə bağlı məlumat verilib.

# İƏT Ombudsmanlar Assosiasiyasının nümayəndə heyəti faktaraşdırıcı missiyanı Tərtərdə davam etdirib

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyevanın dəvəti ilə ölkəmizdə səfərdə olan İslam Əməkdaşlıq Təşkilatının Ombudsmanlar Assosiasiyasının (İƏT OA) prezidentinin rəhbərlik etdiyi və assosiasiyanın Baş katibi müşavirinin iştirakı ilə nümayəndə heyəti Vətən müharibəsi dövründə Ermənistan silahlı qüvvələri tərəfindən ən çox atəşə məruz qalan Tərtərdə faktaraşdırıcı missiya həyata keçirib.



AZƏRTAC xəbər verir ki, səfər çərçivəsində nümayəndə heyətinin üzvləri 44 günlük müharibə zamanı yaşayış məntəqələrinin beynəlxalq humanitar hüququn qaydalarına zidd olaraq atəşə tutulması faktları ilə yerində tanış olub və ətraflı məlumatlandırılıb. Məlumat verilib ki, 44 günlük Vətən müharibəsində erməni hərbi birləşmələri tərəfindən Tərtər rayonuna 16 min 277 top, tank, qrad mərmisi, 21 qadağan olunmuş raket atılıb. Nəticədə 16 mülki şəxs həlak olub, 63 nəfər yaralanıb. Rayonun infrastrukturuna, yaşayış evlərinə, sosial obyektlərinə, o cümlədən 3663 fərdi yaşayış evinə, 83 çoxmənzilli binada 1741 mənzilə, 301 qeyri-yaşayış sahəsinə, 184 sahibkarlıq və ictimai-iaşə müəssisəsinə, 47 sosial obyektə, 12 körpələr evi uşaq bağçasına, 16 məktəbə, 10 tibb müəssisəsinə, 7 mədəniyyət müəssisəsinə, İlk peşə ixtisas məktəbinə, Musiqi Məktəbinə, Klub İcma Mərkəzinə və kənd tibb məntəqələrinə, 30 inzibati obyektə, 103 nəqliyyat vasitəsinə, 18 kənd təsərrüfatı texnikasına, 505 əkin sahəsinə ziyan dəyib. Vətəndaşlara məxsus 161 iribuynuzlu, 393 baş xırdabuynuzlu heyvan, 24 arı ailəsi məhv olub. 58 fərdi yaşayış evi, çoxmənzilli binada olan 2 ev, 1 qeyri-yaşayış sahəsi, 2 sosial obyekt tamamilə dağılıb.

Səfər zamanı Tərtərdə Ermənistan silahlı qüvvələri tərəfindən raket atəşinə məruz qalmış yaşayış evinə və rayona atılmış qadağan edilmiş raketlərin qalıqlarına baxış keçirilib.

Nümayəndə heyəti sonra ermənilərin Azərbaycana qarşı ərazi iddialarını ifşa edən "Marağa-150" abidəsi ilə tanış olublar. Bildirilib ki, ermənilərin Azərbaycanın Qarabağ bölgəsinə köçürülməsini sübut edən tarixi mənbələrdən olan "Marağa-150" abidəsi İranın Marağa ərazisindən Qarabağa köçürülmələrinin 150 illiyi münasibətilə 1978-ci ildə onların özləri tərəfindən inşa edilib. XX əsrin sonlarında Ermənistanın Azərbaycana qarşı növbəti ərazi iddiaları başlayanda "Marağa-150" abidəsi qəsdən dağıdılıb. Çünki o, ermənilərin əzəli Azərbaycan torpağı olan Qarabağa köçürülməsinin əyani sübutu idi. Qonaqlar ermənilərin Qarabağa köçürülmələrini təsdiqləyən, həmçinin "Marağa-150" abidəsi ilə bağlı tarixi sənəd, məlumat və fotolardan ibarət stendlərə baxıblar.

# İlham Əliyevin Müzəffər Ordusu düşmənə gözdağıdır

*Əvvəli 1-ci səh.*

Ötən həftə isə Bakıda daha bir tarixi hadisə yaşandı. İlk dəfə olaraq Azərbaycan, Türkiyə və Pakistanın Xüsusi Təyinatlı Qüvvələrinin nümayəndələrinin iştirakı ilə başlayan "Üç qardaş - 2021" beynəlxalq təlimi isə dünyanın diqqətini bir daha ölkəmizə yönəltdi.

Birgə təlimin əsas məqsədi döyüş əməliyyatlarının aparılması zamanı dost və tərəfdaş ölkələrin xüsusi təyinatlı bölmələrinin qarşılıqlı fəaliyyətinin təkmilləşdirilməsi, sülh və müharibə dövründə əməliyyatlara hazırlanması, bilik və təcrübə mübadiləsinin aparılmasıdır.

Sentyabrın 12-də keçirilən təlimlərin açılış mərasimində Vətən Müharibəsi Qəhrəmanı, general-leytenant Hikmət Mirzəyev çıxış edərək bildirdi ki, bu gün ölkələrimiz arasında bütün sahələr üzrə əməkdaşlıq ən yüksək səviyyədədir. Regionun və xalqlarımızın təhlükəsizliyinin təmin edilməsi üçün əlaqələrimizin daha da gücləndirilməsi və inkişaf etdirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilir.

"Üç qardaş-2021" beynəlxalq təlimləri də bunun tərkib hissəsidir. Bu təlimlər hər üç ölkənin hərbi qulluqçuları arasında geniş təcrübə və fikir mübadiləsi aparılacağına və onların peşəkar hazırlıq səviyyəsinin daha da artırılmasına böyük töhfə verəcək.

Qeyd edilib ki, xalqlarımız və ordularımız arasında bu dostluq bağı sürətlə dəyişən qlobal mühitdə zamanın sınaqlarından uğurla çıxır, beynəlxalq siyasi dəyişikliklərin güclü küləkləri bütün dünyanı bürüsə də, bu üç qardaş etibarlı regional tərəfdaş və əməkdaş olaraq daha da yaxınlaşır.

"Üç qardaş-2021" beynəlxalq təlimi ordular arasında mövcud olan ikitərəfli əlaqələrin daha da gücləndirilməsinə xidmət edəcək, eyni zamanda, terrorla mübarizə üçün yeni üsulların kəşf edilməsinə və qarşılıqlı təcrübə mübadiləsi yolu ilə bacarıqları inkişaf etdirməyə imkan yaradacaq.

Sentyabrın 20-dək davam edəcək təlimlərdə xüsusi təyinatlılar şərti düşmənin arxasına quru, hava, su yolu ilə keçid, pusqu, basqın, eləcə də amfibiya və hava desant hazırlığı üzrə məşğələlərdə səmərəli təcrübə mübadiləsi etməklə yanaşı, həm də qarşıya qoyulan tapşırıqları müvəffəqiyyətlə yerinə yetirirlər.

Bütün bunlar ilk növbədə Azərbaycan Ordusunun qüdrətinin göstəricisidir. Əgər Azərbaycanın güclü ordusu və hərbi potensialı olmasaydı, təbii ki, bu cür təlimlər də baş tutmazdı. Gündən-günə müasir tələblərə cavab verən şəxsi heyətin formalaşması, döyüş meydanında praktiki vərdişlərin təkmilləşdirilməsi üçün keçirilən təlimlər ordumuzun gücünə güc qatır. Qarşıya qoyulan istənilən tapşırığın öhdəsindən asanlıqla gələn belə güclü və müasir ordumuzun olduğunu görmək insanı qürurlandırır.

Əminliklə söyləmək olar ki, bu gün Ali Baş Komandan İlham Əliyevin yaratdığı Müzəffər Ordu istənilən döyüş tapşırığını yerinə yetirməyə qadirdir. 44 günlük Vətən müharibəsindəki zəfər bunun bariz təcəssümüdür.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Aİ-nin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsinə Ağdamda erməni barbarlığı barədə məlumat verilib

**Sentyabrın 17-də Avropa İttifaqının (Aİ) Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaar Ağdama səfər edib.**

AZƏRTAC xəbər verir ki, nümayəndə heyəti əvvəlcə Pənahəli xanın Ağdam şəhərində yerləşən imarəti və İmarət stadionu ilə tanış olub.

Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov erməni barbarlığına məruz qalan tikili barədə məlumat verib. Bildirilib ki, erməni vandalizmi təkcə yaşayış yerlərindən deyil, Azərbaycanın tarixi abidələrindən də yan keçməyib.

Qonaqlar Ağdam şəhərindəki Şəhidlər xiyabanında da olublar. Erməni vəhşiliyi zamanı Xocalıda qətlə yetirilən azərbaycanlıların bir çoxu vaxtilə burada dəfn edilib. Lakin Ağdam işğal olunduqdan sonra bu məzarlıq da ermənilərin vəhşiliyinə məruz qalıb, qəbirlər qazılaraq cəsədlər çıxarılıb. Həmçinin məlumat verilib ki, burada İkinci Dünya müharibəsi qəhrəmanlarının xatirəsinə ucaldılmış abidə də ermənilər tərəfindən dağıdılıb.

Sonra xüsusi nümayəndə Toivo Klaar şəhər mərkəzində yerləşən Ağdam Cümə məscidini ziyarət edib. Bildirilib ki, digər tarixi abidələrimiz kimi, 1868-ci ilin yadigarı olan Ağdam məscidi də Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildikdən sonra talan olunub, yandırılıb. Binanın minarələrinin uçurulmamasına səbəb isə erməni işğalçılarının buradan müşahidə məntəqəsi kimi istifadə etməsi olub. Cümə məscidinin minarələrindən ətrafı asan müşahidə etmək mümkün olduğuna görə tarixi abidə dağıdılmayıb. Buna baxmayaraq, erməni vandalları bütün müqəddəs məkanlarımız kimi, bu məscidin də ibadət zalından heyvan saxlamaq üçün istifadə ediblər. Həmçinin səfər iştirakçıları erməni vəhşiliyi nəticəsində yerləyeksan edilən Ağdam şəhərinin dağıntıları ilə tanış olublar. Şəhər Dram teatrının salamat qalan divarına baxış keçirilib.



Daha sonra nümayəndə heyəti Ağdamın Qiyaslı kənd məscidinə gəlib. Məlumat verilib ki, ermənilər Qiyaslı məscidindən də tövlə kimi istifadə edib. Bununla da erməni vandalları azərbaycanlılara, müsəlman aləminə qarşı nifrətlərini nümayiş etdiriblər.

Qonaqlara Ağdam şəhərinin Baş planı çərçivəsində həyata keçiriləcək quruculuq işləri barədə ətraflı məlumat verilib. Bildirilib ki, Prezident İlham Əliyev mayın 28-də Ağdama səfəri zamanı avtomobil yolunun, yaşayış binasının, Sənaye Parkının, 1 saylı məktəbin yeni binasının təməlini qoyub, park-meşədə ağac əkib. Baş plana əsasən Ağdam şəhərinin ərazisi 1750 hektar, şəhərətrafı bağlar 2450 hektar olacaq. Burada "ağıllı" və dayanıqlı sosial infrastruktur yaradılacaq. Şəhərdə 15 məktəb və uşaq bağçasının inşası nəzərdə tutulub.

Ağdamda ilkin olaraq şəhər sakinləri və qonaqlar üçün 125 hektarlıq böyük meşə parkı salınacaq. Bərpa olunacaq Ağdam kanalı şəhərin içindən keçəcək və onun suyu burada yaradılacaq gölə töküləcək. Həmçinin Ağdamda Sənaye Parkı da yaradılacaq. Park qida sənayesi, kiçik sənaye və xidmət, iri sənaye müəssisələri, sosial və texniki zonalar, TIR parkı, tikinti materiallarının satışı bazası hissələrinə bölünəcək.

Aİ-nin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Ağdam şəhəri üçün yeni məscid nümunələri, bina tipologiyaları və şəhərətrafı obyektlər, yol-nəqliyyat infrastrukturu ilə tanış olub. Diqqətə çatdırılıb ki, "Qafqazın Xirosiması" kimi tanınan Ağdam tezliklə Azərbaycan Prezidentinin və hökumətinin təşəbbüsü ilə regionun ən gözəl şəhərlərindən birinə çevriləcək, doğma yurdlarından 30 il ayrı düşmüş insanların bu torpaqlara təhlükəsiz şəraitdə qayıdışı təmin ediləcək.

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Azərbaycanın Ukrayna ilə ticarət dövriyyəsinin dəyəri 606 milyon dollara yaxındır

Yanvar-avqust aylarında Azərbaycan və Ukrayna arasında ticarət dövriyyəsi 606 milyon dollara yaxın olub.

Ukrayna Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, 8 ayda Azərbaycan bu ölkədən 293,3 milyon dollarlıq məhsul idxal edib. Ölkəmizin Ukraynaya ixrac etdiyi məhsulun dəyəri isə 312,4 milyon dollar olub.

Xatırladaq ki, Ukrayna postsovet məkanında Azərbaycanla ticarət dövriyyəsinə görə Rusiyadan sonra ikincidir.

## KOB sahibkarlar arasında əlaqələrin genişlənməsinə dəstək göstərir



**Göyçay və Ağdaş rayonlarında fəaliyyət göstərən sahibkarlar Lənkəran rayonunda yerləşən çəltik sahələrində və emal zavodunda olublar.**

Kiçik və Orta Biznesin İnkişafı Agentliyindən (KOBİA) AZƏRTAC-a bildirilib ki, KOBİA-nın Lənkəran və Göyçay-Ağdaş KOB inkişaf mərkəzlərinin dəstəyi ilə təşkil olunmuş səfərin məqsədi çəltikçiliklə məşğul olan Lənkəran fermerləri ilə Göyçay və Ağdaşdan olan sahibkarlar arasında əməkdaşlığın qurulması və təcrübə mübadiləsinə dəstək olmaqdır.

Çəltik təsərrüfatında olan sahibkarlar çəltik əkini, aqro-turizm təsərrüfatında sitrus və kivi bağlarına qulluq, çəltik emalı zavodunda isə çəltiyin emalı prosesi ilə tanış olublar.

Tədbir çərçivəsində, həmçinin Lənkəran KOB İnkişaf Mərkəzində sahibkarlar üçün təlim təşkil olunub. Təlimdə sahibkarlar çəltiyin satışı, bu məhsulun daxili və xarici bazarlara çıxarılmasına dair məlumatlandırılıb, onları maraqlandıran suallar cavablandırılıb.

## "Azeri Light" 76,13 dollara satılır

Azərbaycan neftinin qiyməti ucuzlaşıb. AZƏRTAC-ın dünən yaydığı xəbərə görə, "Azeri Light" markalı neftin bir barelinin qiyməti 1,06 dollar azalaraq 76,13 dollar təşkil edib.

Qeyd edək ki, COVID-19 pandemiyasının təsiri nəticəsində Azərbaycan neftinin bir barelinin qiyməti 2020-ci ilin aprelin 21-də 15,81 dollara enmişdi. Sonradan qlobal miqyasda vaksinasiya prosesi və effektiv karantin tədbirləri nəticəsində neft tələbatı tədricən bərpa olunmağa, qiymətlər artmağa başlayıb. "Azeri Light"ın son iki ildə maksimum qiyməti bu il iyulun 5-də qeydə alınıb: bir barel üçün 78,35 dollar.

## Üç dənizin gerçəkləşən əfsanəsi



**19 il əvvəl sentyabrın 18-də BTC-nin təməli qoyulmuşdur**

*Əvvəli 1-ci səh.*

Çünki marşrutun müəyyənləşdirilməsi, xəttin çəkilməsinə razılığın əldə olunması lazım idi. Buna görə, 1998-ci il oktyabrın 19-da BTC-nin tikintisi ilə bağlı "Ankara bəyannaməsi" imzalandı. 1999-cu il noyabrın 18-də isə ATƏT-in İstanbul Zirvə toplantısında "Xam neftin Azərbaycan Respublikası, Gürcüstan Respublikası və Türkiyə Cümhuriyyəti əraziləri ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsilə nəql edilməsinə dair" sazişə imza atıldı. Bu mühüm sənədi 5 ölkənin - Azərbaycanın, Gürcüstanın, Türkiyənin, Qazaxıstanın və ABŞ-ın prezidentləri öz imzaları ilə təsdiqlədilər.

Lakin BTC ideyası yaranan gündən Azərbaycanın istər daxilində, istərsə də xaricində kəmərin tikintisi əleyhinə çıxış edən qüvvələr baş qaldırdı. Onlar müxtəlif bəhanələr gətirirdilər. Bir dəstə deyirdi ki, Azərbaycanın bu boru xəttini doldurmağa kifayət qədər nefti yoxdur. Belə mülahizə yürüdənlər də vardı: "Kəmər heç vaxt gəlirlə işləyə bilməyəcək". Bəziləri isə boruların seysmik cəhətdən riskli zonalardan keçəcəyini söyləyirdilər. BTC-nin ekologiyaya ziyan vuracağını söyləyənlər də tapılmışdı. Halbuki həmin fikirlərin müəlliflərinin heç birinin bu sahələr barədə dərin bilgiləri yox idi.

Ulu Öndər isə uzaqgörənliklə BTC-ni Azərbaycanın gələcəyini çox böyük dərəcədə müəyyən edəcək bir layihə kimi dəyərləndirirdi və onun gerçəkləşməsi üçün mübarizə aparırdı. Bunun nəticəsidir ki, 2002-ci il sentyabrın 18-də Bakıdan 55 kilometr cənubda yerləşən Səngəçal terminalında kəmərin təməlqoyma mərasimi keçirildi. Azərbaycanın, Gürcüstanın və Türkiyənin dövlət başçıları, ABŞ-ın energetika naziri, layihənin tərəfdaşları olan tanınmış xarici şirkətlərin səlahiyyətli nümayəndələri, neçə-neçə ölkənin jurnalistləri orada idilər. Bu qeydlərin müəllifinə də həmin tarixi hadisəni görmək, Ümummilli Liderin tədbirdəki parlaq nitqini dinləmək xoşbəxtliyi nəsib olub.

Beləliklə, BTC artıq gerçəkləşməkdə idi. Ulu Öndər bunu öz çıxışında da qeyd etdi: "Bu yaxın vaxtlarda İstanbulda "Üç dənizin əfsanəsi" adlı konfrans keçirildi. Orada əfsanə haqqında söhbət gedirdi. Mən orada nitq söylədim, dedim, siz burada əfsanədən danışırsınız, amma mən sizə demək istəyirəm ki, bu, xəyal deyil, əfsanə deyil, üç dəniz - Xəzər dənizi, Qara dəniz, Aralıq dənizi birləşəcəkdir. Bunu birləşdirən də Türkiyə, Gürcüstan, Azərbaycan, onların həyata keçirdikləri bu layihə və Amerika Birləşmiş Ştatlarının bu məsələyə daimi dəstəyi olmuşdur. Ona görə də indi xəyaldan gerçəkliyə gəlib çatmışıq".

Bununla belə, BTC-nin bədxahları kəmərin təməli qoyulandan sonra da rahatlıq tapa bilmir, hər vasitə ilə layihəyə əngəl törətmək istəyirdilər. Bir sıra qeyri-hökumət təşkilatları tikintiyə mane olmaq üçün növbəti səbəblər uydururdular. Bu dəfə kəmərin Gürcüstanın "Borjomi" mineral su mənbəyinə ekoloji cəhətdən guya zərbə vuracağı fikrini ortaya atdılar. Bu da layihənin Ətraf Mühitə və Sosial Sahəyə Təsirin Qiymətləndirilməsi sənədlərinin imzalanmasını gecikdirirdi. Hətta müxtəlif qruplar kəmərin tikintisini maliyyələşdirəcək beynəlxalq qurumların ofisləri qarşısına toplaşaraq onun çəkilişinə etiraz edirdilər.

Lakin 2003-cü ilin fevral ayında Vaşinqtonda keçirilən "Şərq-Qərb enerji dəhlizi reallıqdır" konfransı öz işini davam etdirdiyi günlərdə Ümummilli Lider Beynəlxalq Maliyyə Korporasiyasının, BTC-yə kredit verəcək digər qurumların rəhbərləri ilə görüşdü, söhbətlər apardı. Bütün bunlar layihənin irəliləməsinə təkan verdi. Beləliklə, Heydər Əliyevin dünyadakı hörmət və nüfuzu BTC-ni bu çətinlikdən də çıxardı.

2004-cü ilin fevral ayında isə Bakıda, "Gülüstan" sarayında Prezident İlham Əliyevin iştirakı ilə BTC-nin maliyyələşməsinə aid son sənədlər imzalandı və bu problem tamamilə həll olundu.

2005-ci il mayın 25-də kəmərə Səngəçal terminalındakı baş nasos stansiyasından ilk neft vuruldu. 2006-cı il mayın 28-də BTC-nin daşıdığı neft Ceyhan terminalına çatdı. Həmin il iyulun 13-də kəmərin tam sistem kimi işə düşməsi münasibətilə Türkiyədə təntənələr keçirildi.

Həmin vaxtdan bəri öz yaradıcısının - Ulu Öndər Heydər Əliyevin adını şərəflə daşıyan kəmər fasiləsiz və təhlükəsiz işləyir. Bu gün onun gündəlik ötürücülük gücü 1,2 milyon bareldir. Kəmərə əsasən, "Azəri-Çıraq-Günəşli"nin nefti və "Şahdəniz"in kondensatı vurulur. Bundan əlavə, BTC-yə müəyyən həcmdə Türkmənistan, Rusiya və Qazaxıstan nefti də qoşulur.

Hazırda BTC Ko.-nun səhmdarları bp (30,1 faiz), AzBTC (25 faiz), MOL (8,9 faiz), "Ekvinor" (8,71 faiz), TPAO (6,53 faiz), "Eni" (5 faiz), "Total" (5 faiz), İTOÇU (3,4 faiz), İNPEKS (2,5 faiz), "EksonMobil" (2,5 faiz) və ONGC (BTC) Limited (2,36 faiz) şirkətləridir. Əməliyyatçı olan bp şirkətinin məlumatına görə, bu ilin birinci yarısında Ceyhan terminalında BTC vasitəsilə ixrac olunmuş 13 milyon tondan artıq (təqribən 99 milyon barel) xam neft və kondensat 137 tankerə yüklənmiş və yola salınmışdır. Kəmər 2006-cı ilin ortalarında istismara veriləndən bu il iyulun 1-dək ümumilikdə təqribən 488 milyon tondan çox (3,66 milyard barel) xam neft nəql edilmiş və Ceyhanda 4796 tankerə yüklənərək dünya bazarlarına göndərilmişdir.

BTC bütün regionun həyatında mühüm rol oynayır. O, ötən illər ərzində 1768 kilometr məsafə qət edərək ərazisindən keçdiyi üç ölkənin - Azərbaycanın, Gürcüstanın və Türkiyənin sakinlərinin güzəranını xeyli yaxşılaşdırıb. Kəmər Azərbaycana böyük gəlirlər gətirib. Həmin vəsait ARDNF-yə (Azərbaycan Respublikası Dövlət Neft Fondu) daxil olur, eləcə də ölkənin ən zəruri sosial-iqtisadi problemlərinin həllinə yönəldilir.

Vaxtilə Ulu Öndər BTC-nin iqtisadi gücünü qeyd etməklə yanaşı, onu həm də Azərbaycanı Avropa ilə daha sıx bağlayacaq polad kəmərə bənzətmişdi. Bu gün BTC, həqiqətən, Azərbaycanı beynəlxalq enerji ailəsinə qovuşdurub və dünyanın enerji təhlükəsizliyinə öz töhfəsini verməkdədir. Bunu dəfələrlə vurğulayan Prezident İlham Əliyev BTC-dən başlanan yolları geniş dəhlizlərə çevirərək dünyanın ən uzaq ünvanlarına çatdırıb.

2018-ci il mayın 29-da Səngəçal terminalında "Cənub qaz dəhlizi"nin rəsmi açılış mərasimindəki nitqində dövlət başçısı BTC-ni bir daha yüksək dəyərləndirərək demişdir: "2002-ci ildə biz artıq "Azəri-Çıraq" yatağından böyük neft gözləyərkən məhz burada - Səngəçal terminalının ərazisində Bakı-Tbilisi-Ceyhan neft kəmərinin təməlini qoyduq. Bu kəmər 2006-cı ildə istifadəyə verildi və bu gün Azərbaycan xalqına, bütün dost ölkələrə xidmət edir. Bu gün Bakı-Tbilisi-Ceyhan neft kəməri vasitəsilə nəinki Azərbaycan nefti, eyni zamanda, digər ölkələrin nefti də nəql edilir. Xəzərin şərq sahilində digər ölkələr tərəfindən hasil edilən neft artıq bu kəmər vasitəsilə dünya bazarlarına çıxarılır.

Azərbaycan bu gün, eyni zamanda, etibarlı tranzit ölkə kimi qonşu ölkələrə öz imkanlarını təqdim edir".

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Dünyada buğda qıtlığı yaranır



### Bu isə, ilk növbədə, qiymət artımına səbəb olur

*Əvvəli 1-ci səh.*

Göründüyü kimi, fərq yüksəkdir. Bu il istehsalın azalmasına səbəb kimi mütəxəssislər iqlim dəyişikliyi ilə əlaqədar baş verən quraqlıqlar sayəsində yaranan su çatışmazlığını, bəzi yerlərdə isə yağan leysan yağışları göstərirlər.

Bütün bunlarsa - istər təbii, istərsə də süni amillər buğdanın satış qiymətinin kəskin şəkildə bahalaşmasına gətirib çıxarır. Məsələn, ötən ilin avqust ayında buğdanın dünya bazarında satış qiymətləri 188-238 dollar civarında olmuşdu. Lakin elə həmin ilin dekabr ayında qiymətlər 219-265 dollara qədər artdı. Mütəxəssislərin hesablamalarına görə, bu, son 4 ilin ən yüksək qiymətləri idi. Belə ki, 2017-2018-ci illərdə buğdanın tonu 174-190 dollara satılmışdı. Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) açıqladığı statistik rəqəmlərdən aydın olur ki, ötən ilin ikinci yarısından cari ilin birinci yarısınadək dünyada buğdanın qiymət artımı müşahidə olunur ki, bunun da əsas səbəblərindən biri kimi qlobal səviyyədə təminatın azalmasıdır. Yəni tələbat artır, istehsal isə azalır.

FAO-nun qarşıdakı illər üçün açıqladığı rəqəmlər də ürəkaçan deyil. Belə ki, təşkilatın araşdırmalarına görə, buğdaya olan tələbatın artması və bunun fonunda istehsal-ixrac həcminin azalması cari ilin keçən ayları ərzində dünyanın bir çox ölkələrində buğda və çörəyin qiymətinin bahalaşmasına səbəb olmuşdur. Qeyd edildiyi kimi, cari il buğda istehsalı əhəmiyyətli dərəcədə azaldığı üçün 2021-2022-ci il mövsümündə dünyada buğda təminatında ciddi problemlərin üzə çıxacağı gözlənilir.

Yaranmış vəziyyət dünyanın ən iri taxıl istehsalçılarının ixrac həcmlərini azaldacağından, eləcə də əlavə rüsumlar tətbiq edəcəyindən və nəticədə qlobal miqyasda taxıl tədarükünün daralacağından xəbər verir. Üstəlik buğdanın istehsalında olan azalmalar var. Məsələn, Amerika qitəsinin əsas ixracatçıları olan ABŞ və Kanada buğda yığımında azalmalara görə müxtəlif kvotlar üzrə yaxın region ölkələrinə daha az məhsul satacağını, eyni zamanda, əlavə rüsumların tətbiq olunacağı barədə xəbərdarlıq ediblər. Belə vəziyyət Avropada da baş verir. Bu qitənin iri ixracatçı ölkələrindən Macarıstan, Fransa, Rumıniya və digərləri cari mövsümdə ixrac kvotalarında və ticarət prosedurlarında yeni rejimlərin tətbiqinin anonsunu verib. Kvotaların tətbiqində başlıca məqsəd daxildəki qiymətləri sabit saxlamaqdır.

Ümumilikdə, ixrac kvotalarının, və ya qeyd edilən ticarət mexanizmlərinin tətbiqində məqsəd taxıl satışından daha çox qazanmaq və qazanılan valyutanı kənd təsərrüfatının həmin sektoruna yönəltməklə istehsalçılara əlavə maddi motivasiyalar verməkdir. Digər tərəfdən, bu tədbirlər xarici bazarlardakı qiymət dalğalanmalarının daxili bazarlara təsirinin qarşısını almaq, daxili bazarda məhsulların qiymətlərini stabilləşdirmək, xarici konyunkturadan asılılığı azaltmaq məqsədlərinə də xidmət edir.

Dünyada təxminən 27-28 ölkə özünün buğda tələbatını yerli istehsal hesabına ödəyir. Digər ölkələr isə, yəni təxminən 160-dan artıq ölkə tələbatı idxal hesabına ödəməyə məcburdur. Qardaş Türkiyədə buğda ilə özünütəminetmə səviyyəsi təxminən 70, Azərbaycanda 58 faizdir. Uzun illər Azərbaycanın ərazilərini işğalda saxlayaraq taxıl sahələrini əkib istismar edən Ermənistanda isə bu rəqəm 31 faizə bərabər olub. Olub ona görə ki, bundan sonra həmin ərazilərdən əldə edilən buğda Azərbaycanın öz tələbatı üçün istifadə ediləcəyindən Ermənistanın özünü təminetmə səviyyəsi daha da azalmış olacaq. Beləliklə, dünya ölkələrinin 80 faizinin buğdaya olan tələbatının idxaldan asılılığı və əksər istehsalçı ölkələrdə istehsal və ixracın azalması qlobal miqyasda ərzaq buğdasının istehlakında ciddi çətinliklər yaradıb.

Cari il iyulun 30-da FAO-nun Romada sammiti keçirilmişdir. Həmin sammitdə FAO-nun rəhbəri Tsuy Dunyuy dünyada ərzaq qıtlığının qarşısını almaq üçün müvafiq tədbirlərin görülməsinin vacib olduğunu bildirərək demişdir: "Əgər məsuliyyəti üzərimizə götürməsək və təcili tədbirlər görməsək, 2030-cu ildə görüşəndə aclığı və yoxsulluğu yox etmədiyimizi və dünyada 660 milyon insanın hələ də ac qaldığını bəyan etmək məcburiyyətində qalacağıq".

Azərbaycan əhalisi dünyada ən çox un və çörək istehlak edən ölkələr sırasındadır. Belə ki, dünyada adambaşına ən az çörək istehlakı Skandinaviya ölkələrindədir - ildə 32-45 kiloqram. Rusiyada bu göstərici 97, Bolqarıstanda 96, Fransa və Almaniyada 54, İtaliyada 52 kiloqramdır. Türkiyədə isə əhali adambaşına ildə 124 kiloqram çörək yeyir. Azərbaycanda Dövlət Statistika Komitəsinin məlumatına görə, çörək və digər məhsulların istehsalında ötən il 1 milyon 26 min 670 ton un istifadə edilib ki, bu da adambaşına 102,667 kiloqram deməkdir. 841465 ton un isə ərzaq məhsulu kimi istifadə olunub. Keçən il Azərbaycanda 1 milyon 294 min 604 ton təzə çörək istehsal edilib. Onun 1 milyon 280 min 556 tonu ərzaq məhsulu kimi istehlak olunub. Bu isə adambaşına 128,4 kiloqram çörək istehlakı deməkdir. Adambaşına un istehlakı isə 84,4 kiloqram olub.

Statistika göstərir ki, ölkəmiz əvəzedilməz nemət olan buğda ilə öz tələbatını 58 faizə qədər ödəmək iqtidarındadır. Belə olan halda, ilk növbədə, vətəndaş məsuliyyəti önə çıxır. Yəni, buğdadan hazırlanan bütün məhsulların istifadəsində israfçılığa yol verməməliyik. İndi hər kəs hər gün nə qədər çörəyin zibilliyə atıldığının şahididir. Bu, bizim həm milli adət-ənənəmizə, həm də dini inancımıza ziddir. Belə olan halda hər bir vətəndaş üzərinə düşən məsuliyyəti dərk etməlidir. Hökumət isə işğaldan azad olunan bərəkətli torpaqlardan səmərəli istifadə etməklə ixracın həcmini müəyyən qədər azaltmalıdır. Hökumət öz məsuliyyətini dərk edir. İşğaldan azad olunan ərazilərdə ilk mövsümdə buğda əkilməsi hökumətin bu sahəyə göstərdiyi xüsusi diqqətin təzahürüdür.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

## Bir qrup Vətən Müharibəsi Qəhrəmanına və ailə üzvlərinə mənzillərin sənədləri təqdim edildi

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən bir qrup Vətən Müharibəsi Qəhrəmanına və ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adı verilmiş şəxslərin ailə üzvlərinə mənzillərin sənədləri təqdim edilib.



DOST Agentliyində keçirilən tədbirdə əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun ötən il 44 günlük Vətən müharibəsində əldə etdiyi möhtəşəm tarixi Zəfərdən bəhs edib.

Nazir müavini 26 noyabr 2020-ci il tarixli qanunla təsis edilən "Vətən Müharibəsi Qəhrəmanı" adının ölkəmizin ən ali fərqlənmə dərəcəsi kimi müəyyən olunduğunu deyib. Dövlət başçısının 9 dekabr 2020-ci il tarixli sərəncamı ilə bir qrup hərbi qulluqçuya "Vətən Müharibəsi Qəhrəmanı" adı verildiyini, 30 dekabr 2020-ci il tarixli fərmanla isə onlara Prezidentin təqaüdünün (aylıq məbləği 2 000 manat) təsis edildiyini bildirib.

A.Kərimov bildirib ki, bu yüksək qayğının davamı olaraq, Prezident İlham Əliyevin 25 avqust 2021-ci il tarixli "Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanlarının və onların ailə üzvlərinin sosial-məişət şəraitinin yaxşılaşdırılması haqqında" sərəncamına əsasən, bu kateqoriyadan olan şəxslərin də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən mənzillə təminatına başlanıb. Bu gün həmin vətəndaşlardan daha bir qrupu mənzillə təmin edilir. Qeyd edilib ki, dövlət başçısının 25 yanvar 2021-ci il tarixli sərəncamı ilə 2021-2025-ci illərdə şəhid ailələri və müharibə əlillərinə mərhələli şəkildə 11 min mənzil və fərdi ev təqdim edilməsi nəzərdə tutulub. O cümlədən 2021-ci ildə onlara 3 minədək mənzil və fərdi evin verilməsi işləri aparılır. Bu da qeyd olunan şəxslərin mənzil və fərdi evlə təminatı proqramının 2021-ci ildə 2018-ci ilə nisbətən 5 dəfəyə yaxın genişləndiyini göstərir. 2021-ci il üzrə artıq 1600, ümumən ötən dövrdə 11 minə yaxın mənzil və fərdi ev şəhid ailələri və müharibə əlillərinə təqdim edilib. Həmçinin bu il daha 100 avtomobil, indiyədək 7300-dək avtomobil müharibə əlillərinə verilib.

Vətən Müharibəsi qəhrəmanları və ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adı verilmiş hərbi qulluqçuların ailə üzvləri dövlət başçısı tərəfindən yüksək diqqət və qayğı ilə əhatə olunmalarından razılıq hisslərini ifadə ediblər. Onlar göstərilən hərtərəfli qayğıya, bu gün yeni mənzillərlə təmin edildiklərinə görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

*"Azərbaycan"*

## Azərbaycanda küncüt yığımına başlanılıb

Bu il Saatlı rayonunda 30 hektara yaxın ərazidə küncüt əkini aparılıb. Birinci və ikinci əkin kimi əkilən küncütün artıq yığımına başlanılıb.

Fermer Şahmurad İmanova məxsus sahədə qəhvəyi küncüt əkilib. Nəticədə 1 hektar sahədən 12 sentner məhsuldarlıq əldə edilib. Ümumiyyətlə, dünyada 1 ha sahədən ən yüksək məhsuldarlıq 15-16 sentner hesab edilir. Fermerlər tərəfindən, əsasən, ağ və qəhvəyi küncüt toxumları əkilir, lakin ən məhsuldar və keyfiyyətli toxum qəhvəyi küncütdür. Küncüt sortları vegetasiya müddətinin uzunluğuna, məhsuldarlığına və toxumunun rənginə görə seçilir.

Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində fəaliyyət göstərən "Aqroservis" Açıq Səhmdar Cəmiyyəti bu sahənin inkişafına dəstək, həmçinin digər fermerlərin də bu sahəyə marağının artırılmasını təşviq etmək üçün bir sıra addımlar atıb. Belə ki, cəmiyyət ölkəmiz üçün qeyri-ənənəvi bitkiçilik sahəsinin inkişafı məqsədilə fermerlərə kompleks aqrotexniki xidmətlərlə bağlı təkliflər paketi hazırlayıb. Tədbirlər planında əkin üçün lazım olacaq bütün aqrotexniki işlər, texnika, keyfiyyətli mineral gübrə və zərərvericilərə qarşı mübarizə üçün dərman təminatı ilə bağlı fermerlərə dəstək öz əksini tapıb.

Küncüt qeyri-ənənəvi bitki olduğu üçün fermerlərin maarifləndirilməsi və bitkinin vegetasiya müddətində düzgün qulluğun edilməsi üçün "Aqroservis" ASC Əkinçilik Elmi-Tədqiqat İnstitutu ilə əməkdaşlıq edərək bu sahələrə aqronomların ayrılması, bitkinin düzgün inkişafı üçün aqrotexniki məsələlərin həlli istiqamətində müvafiq işlər görüb.

Görülən işlərin əsas məqsədi maarifləndirmə və bu sahəyə olan marağın artırılması ilə yanaşı, texniki təminatda dəstək, iqtisadi cəhətdən daha çox əhəmiyyətli olan qeyri-ənənəvi bitkiçilik sahələrini inkişaf etdirməkdir.

# 18 Sentyabr Üzeyir Musiqi Günüdür



# Festivallar şəhəri - musiqiylə açılır hər səhəri

## Qələbə simvollu "Xarıbülbül" Cıdır düzünə qayıtdı, "Vaqif Poeziya Günləri" bərpa edildi

**Şuşa - yenilməz diyar! Şuşa mədəniyyət və mənəviyyat ocağı!**

Şuşa, Qarabağda Zəfərimizin rəmzi! Nə qədər istəsək simvollaşdıra bilərik bu qalalar məskənini. 30 ilə yaxın idi həsrətini çəkdiyimiz doğma şəhərimiz əzəmətini artıq özünə qaytarır, yüksəlir. İndi İsa bulağından ovuc-ovuc su içir, illərin həsrətindən pörşələnən sinəmizin atəşini söndürür, zümzüməsini dinləyirik!

Neçə illər Ermənistanın işğalı altında inləyən, öz doğmalarının ayaq izlərinə, isti nəfəsinə, nəğməsinə, musiqisinə həsrət qalan Şuşa yenidən öz təmtərağına qovuşur. Zəfər yolu nəğməli, musiqili doğmalarını onun ziyarətinə gətirir. Bir vaxtlar festivallar şəhəri kimi də tanınan Şuşa yenidən həmin günlərinin sevincinə bürünür: "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalından sonra daha bir bayram sovqatlı ənənə bərpa edildi - "Vaqif Poeziya Günləri" dünyaya səs salmaqla yanaşı, həm də düşmənin çirkin niyyətlərinin tamamilə iflasa uğradığını göstərdi.

### Şuşanın xoş növrağı

"Xarıbülbül" Musiqi Festivalı ötən əsrin səksəninci illərindən burada keçirilib. 30 ildir Qarabağın kədər, ayrılıq, onlardan doğan nisgilin simvoluna çevrilən bu "dağlar gözəli" haqqında ötən ilin 8 noyabr tarixinədək o qədər əfsanə, rəvayət, hekayət, nəhayət, hicran dolu "nağıl" eşitmişdik ki...

Şuşanın işğaldan azad edilməsindən sonra bu qədim mədəniyyət şəhərini ziyarət edərkən Ali Baş Komandan, Azərbaycan Prezidenti İlham Əliyev ötənləri xatırlatmaqla yanaşı, görüləcək işlərdən, qalalar və abidələr məskəninin yenidən canlandırılacağını, əvvəlki növrağının özünə qaytarılacağını da orada bəyan etdi: "Bu il Şuşada "Xarıbülbül" festivalı və "Vaqif Poeziya Günləri" keçirilməlidir. Şuşada "Vaqif Poeziya Günləri" bərpa edilməlidir". Həmin o arzulanan günün şahidlərinə çevrildik. Bu il mayın 12-13-də Azərbaycanın mədəniyyət paytaxtı Şuşa "Xarıbülbül" Musiqi Festivalına evsahibliyi etdi. Doğmalarını, nəğməli, sazlı-sözlü qonaqlarını qarşıladı.

Dövlət başçısı festivalın açılışında çıxış edərək bildirdi ki, bu, ölkəmizin tarixində əlamətdar bir gündür. Uzun fasilədən sonra Cıdır düzündə - hər birimiz üçün müqəddəs olan Şuşada "Xarıbülbül" festivalı keçirilir. Bu münasibətlə festival iştirakçılarını və ümumiyyətlə, bütün Azərbaycan xalqını ürəkdən təbrik edən dövlət başçısı dedi ki, biz bu günü 30 il səbirsizliklə gözləmişik, Vətən həsrəti ilə yaşamışıq: "...Uzun fasilədən sonra bu il birinci dəfə keçirilən "Xarıbülbül" Musiqi Festivalı şəhidlərimizin əziz xatirəsinə həsr olunub. Biz bu günü bizim qəhrəman hərbçilərimizə borcluyuq, Azərbaycan xalqına borcluyuq..."





Xatırladaq ki, "Xarıbülbül" ilk dəfə 1989-cu ildə Şuşa şəhərində keçirilən beynəlxalq musiqi festivalıdır. Bu musiqi festivalı məşhur xanəndə Seyid Şuşinskinin 100 illik yubileyi ilə əlaqədar təşkil edilib. Festival hər il may ayında Yaponiya, ABŞ, Türkiyə, Almaniya, İsrail, İtaliya, İspaniya, Avstriya, Əfqanıstan kimi ölkələrin və keçmiş SSRİ-nin iştirakı ilə keçirilirdi.

Sonuncu festival 1992-ci ilin may ayında keçirilib. Bundan sonra festival qısa müddətdə Ağdam şəhəri işğal olunana qədər orada təşkil edilib.

### 7 məkanda keçirilən festival

Aradan illər keçdi və 44 günlük Vətən müharibəsi bizi yenidən Şuşaya və onun musiqili, nəğməli günlərinə qovuşdurdu. Azərbaycan Prezidenti İlham Əliyev 2021-ci il 7 may tarixli sərəncamı ilə Şuşa şəhərini ölkənin Mədəniyyət paytaxtı elan etdi. Bu sərəncamla vaxtilə Şuşada keçirilən "Vaqif Poeziya Günləri" və "Xarıbülbül" Musiqi Festivalı da bərpa olundu. 2021-ci il mayın 12-13-də Şuşa yenidən "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalına evsahibliyi etdi.

100-ə yaxın iştirakçının qatıldığı, Cıdır düzündə tikilmiş 7 məkanda keçirilən festival 12-15 yaşlarında xanəndələrin "Qarabağ şikəstəsi" muğamının ifası ilə açıldı. Festivalın ilk günündə Qarabağ atlarının yarışı, pəhləvanların güləşi də təşkil olundu.

Onu da qeyd edək ki, 1990-cı ildə "Xarıbülbül" festivalı beynəlxalq status alıb.

Ermənistanın Azərbaycan torpaqlarına təcavüzü və Şuşanın 1992-ci il mayın 8-də işğala məruz qalması ilə əlaqədar festival Ağdam şəhərində təşkil edilib. Ağdamda keçirilən festivaldakı çıxışlar arasında Xalq artisti Qədir Rüstəmovun ifa etdiyi, Azərbaycan musiqisinin "Qızıl Fond"una daxil olan "Sona bülbüllər" mahnısı xüsusi yer alıb.

Onu da qeyd edək ki, 1992-ci ildə 4-cü festival mayın 15-də başlamalı və möhtəşəm olmalı idi. Burada dünyanın 30-dan çox ölkəsindən 500 nəfərin iştirakı planlaşdırılırdı. Ondan əvvəl festival 1991-ci ildə keçirilib ki, həmin musiqi bayramında 25 ölkədən təxminən 300 nəfər, hətta, ABŞ və Avstraliyadan sənətçilər də öz məharətlərini göstəriblər.

### "Respublika" sarayını "silkələyənlər"

Bildiyimiz kimi, Ağdam şəhəri də 1993-cü ilin iyul ayının ortalarında işğala məruz qaldı. Bununla da "Xarıbülbül" beynəlxalq musiqi festivalı sanki "unuduldu".

Ağdamın işğalından sonra festivalın qərargahı Mingəçevir şəhərində idi. Tamaşaçı çoxluğu səbəbindən festival çərçivəsində konsertlər stadionlarda keçirilirdi.

1990-1991-ci illərin final konsertləri Bakıdakı "Respublika" sarayının bəxtinə yazıldı.

Builki festivalda ölkəmizdə multikultural və tolerantlıq şəraitində yaşayan müxtəlif xalqların nümayəndələri çıxış etdilər. Bu tövsiyə festivalın təşkilatçısı olan Heydər Əliyev Fonduna dövlət başçısı tərəfindən verilmişdi. Çünki Vətən müharibəsində Azərbaycanda yaşayan bütün xalqların böyük payı var.

Şuşa yalnız musiqi festivallarına evsahibliyi etməyib. Hələ ötən əsrin səksəninci illərindən başlayaraq burada ədəbi simaların xatirə gecələri, məclislər, poeziya günləri də keçirilib.

2021-ci il avqustun 30-da "Vaqif Poeziya Günləri" də bərpa olundu. Bu tədbirin keçirilməsi çox mühüm ədəbiyyat və mədəniyyət hadisəsi olmaqla, həm də böyük əhəmiyyət kəsb edən siyasi hadisə idi.

Azərbaycan Prezidenti İlham Əliyev tədbiri açarkən bildirdi ki, bu gün ölkəmizin həyatında çox əlamətdar gündür: "Biz böyük Azərbaycan şairi, dövlət xadimi, Qarabağ xanının vəziri Molla Pənah Vaqifin məqbərəsinin önündə "Vaqif Poeziya Günləri"nin açılışını qeyd edirik. Bu münasibətlə Sizi və bütün Azərbaycan xalqını təbrik edirəm..."

Xatırladaq ki, Şuşada "Vaqif Poeziya Günləri" 1982-ci ildən keçirilməyə başlayıb. Daha dəqiq ifadə etsək, 1982-ci il yanvarın 14-də qarlı-şaxtalı bir gündə Azərbaycanın qədim şəhəri, Qarabağ xanlığının keçmiş mərkəzi olan Şuşada Molla Pənah Vaqifin məzarı üstündə məqbərə və abidə ucaltmaq, o dövr üçün ideoloji baxımdan fövqəladə bir hadisə idi. Molla Pənah Vaqifin yaradıcılığına, fəaliyyətinə və şəxsiyyətinə ən böyük dəyəri həmin məqbərini ucaltmaqla, Ümummilli Lider Heydər Əliyev verib.

Dəhşətlisi isə o idi ki, ötən əsrin 90-cı illərinin əvvəllərində Qarabağın işğalı nəticəsində təkcə Şuşada 600-dən çox tarixi abidə, o cümlədən Molla Pənah Vaqifin məqbərəsi, məzarı və abidəsi də məhv edilmişdi.

### Ədəbi tribuna, siyasi mesaj: "Biz qayıtmışıq, Şuşa, sən azadsan!"

Hələ 1992-ci ildə Ümummilli Lider Heydər Əliyev görüşlərinin birində deyirdi: "Ümidvaram ki, Vaqifin məqbərəsi yenidən əvvəlki gözəlliyinə qayıdacaq..."

17 ildir ki, Azərbaycan Prezidenti İlham Əliyev Ulu Öndər Heydər Əliyevin başladığı, lakin yarımçıq qalmış işləri qətiyyətlə, uğurla başa çatdırmaqdadır.

Azərbaycan Prezidenti İlham Əliyev Şuşada "Vaqif Poeziya Günləri"ndə çıxış edərkən xüsusi vurğuladı ki, Molla Pənah Vaqif öz ənənələri ilə seçilən, ədəbi məktəb yaratmış ölməz sənətkardır: "... O, əhəmiyyətini əsrlərdən bəri qoruyub saxlayan bənzərsiz poeziya nümunələri meydana gətirməklə, milli ədəbiyyatın yeni istiqamətdə inkişafına təkan vermiş, Azərbaycan tarixinə, həmçinin siyasi xadim kimi daxil olan Vaqif taleyüklü məsələlərin həllində müdriklik və uzaqgörənlik nümayiş etdirmişdir".

Mədəniyyət və mənəviyyat paytaxtımız olan Şuşada may ayının 12-də başlayan ikigünlük "Xarıbülbül" festivalı, eləcə də avqustun 30-da keçirilən "Vaqif Poeziya Günləri" bir daha göstərdi ki, bütün sahələrdə, o cümlədən düşmənə qarşı mübarizədə birlik, həmrəylik nümayiş etdirən xalq olaraq Şuşamızı azad etdik, tarixi şəhərimizə Zəfərlə qayıtdıq!

***Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"***

# Musiqi gününün indi bir başqa təntənəsi var




*Əvvəli 1-ci səh.*

Dahi bəstəkar, peşəkar musiqi sənətimizin və milli operamızın banisi, musiqişünas alim, publisist, dramaturq, pedaqoq, ictimai xadim Üzeyir bəy Hacıbəyli əslən şuşalıdır.

Onun uşaqlığı "Qafqazın konservatoriyası" adlandırılan bu gözəl şəhərdə keçib. Şuşanın zəngin musiqi mühiti Üzeyir bəyin xəyallarına qol-qanad verib, nadir fitri istedadını cilalayıb.

Şuşada, Tiflisdəki Qori Müəllimlər Seminariyasında, Moskvada, Sankt-Peterburqda təhsil alan Üzeyir bəy Hacıbəylinin fəaliyyəti çoxşaxəli olub. O, gənc yaşından Cəbrayıl qəzasının Hadrut kənd məktəbindən başlayan pedaqoji işini Bakıda ömrünün sonunadək davam etdirməklə yanaşı, Azərbaycan mətbuatının, musiqi və teatr sənətinin inkişafında müstəsna xidmətlər göstərib. İlk tamaşası 1908-ci il yanvarın 25-də Hacı Zeynalabdin Tağıyevin teatrında təqdim olunan "Leyli və Məcnun" əsəri ilə təkcə Azərbaycanda deyil, bütün müsəlman Şərqində opera sənətinin əsasını qoyub. Bəstəkar bir-birinin ardınca yazdığı "Şeyx Sənan", "Rüstəm və Söhrab", "Şah Abbas və Xurşud banu", "Əsli və Kərəm", "Koroğlu", "Harun və Leyla" muğam operaları, "O olmasın, bu olsun", "Arşın mal alan" musiqili komediyaları, marş, kantata, fantaziya, mahnı və romanslar, kamera və xor üçün əsərləri ilə musiqi xəzinəmizi zənginləşdirib.

Üzeyir bəy Hacıbəyli Bakı Musiqi Texnikumuna, Azərbaycan Elmlər Akademiyasının İncəsənət İnstitutuna, Azərbaycan Dövlət Konservatoriyasına, Bəstəkarlar İttifaqına rəhbərlik edib. İlk xalq çalğı alətləri orkestrini, Azərbaycan Dövlət Xorunu yaradıb. Üzeyir bəyin elmi-nəzəri məqalələri, "Azərbaycan xalq musiqisinin əsasları" monoqrafiyası milli musiqi elmimizin inkişafında böyük xidmət kimi dəyərləndirilir. Üzeyir bəy 300-dən çox xalq mahnısını toplayıb nota salıb. Azərbaycan Xalq Cümhuriyyətinin, indi isə müstəqil Azərbaycanın Dövlət himninin musiqisini yazıb.

Musiqi xəzinəsinin ən qiymətli incilərindən hesab olunan "Sənsiz" və "Sevgili canan" romansları ilə o, romans-qəzəl janrının əsasını qoyub. Üzeyir bəy Hacıbəylinin bu iki romansı üçün Azərbaycanın dahi şairi Nizami Gəncəvinin qəzəllərinə müraciət etməsi təsadüfi olmayıb. Nizami Gəncəvinin 800 illik yubileyinin keçirilməsinə hazırlıqla bağlı tədbirlər barədə düşünüldüyü zaman böyük bəstəkarımızın da möhtəşəm ideyaları olub. Onda 1940-cı illərin əvvəlləri idi. Üzeyir bəy Hacıbəyli dünya şöhrətli şairin "Yeddi gözəl" əsərindəki gözəllərin obrazlarına uyğun yeddi şeirinə musiqi bəstələmək qərarına gəlib. Obrazların musiqi portreti, daxili aləmləri və xarakterlərini bəstələyəcəyi vokal miniatürlərdə əks etdirməyi düşünən bəstəkar yenə də möhtəşəm əsərləri ilə musiqisevərləri heyrətləndirəcəkdi... Amma ağrılı-acılı hadisələr araya girib. Böyük Vətən müharibəsi başlayıb. Üzeyir bəy bu iki əsəri - 1941-ci ildə "Sənsiz", 1943-cü ildə isə "Sevgili canan" qəzəl-romanslarını bəstələyə bilib. Hər iki romansın ilk ifaçısı tanınmış müğənni Bülbül olub. Sonra Müslüm Maqomayev kimi korifey sənətkar da həmin əsərləri özünəməxsus tərzdə ifa edib.

### "...kədər, qüssə, fəlakət sənsiz"

1948-ci il 24 noyabr... O gün də Bülbülün ifasında "Sənsiz" səslənib:

*Hər gecəm oldu kədər, qüssə, fəlakət sənsiz,*
*Hər nəfəs çəkdim, hədər getdi o saat sənsiz!*
*Sənin ol cəlb eyləyən vəslinə and içdim inan,*
*Hicrinə yandı canım, yox daha taqət sənsiz!*

Noyabrın 23-ü, gecə saat 2-də Azərbaycan xalqının böyük, fədakar oğlu bu dünya ilə vidalaşıb. Mir Cəfər Bağırovun göstərişi ilə Üzeyir bəyin cənazəsi Azərbaycan Elmlər Akademiyasının böyük salonunda qoyulub. Dahi Üzeyir bəy Hacıbəyli ilə vidalaşmaq üçün gələnlərin sayı bilinməyib. Həmin gün - noyabrın 24-ü ümumxalq matəmi kimi tarixə yazılıb. Hər kəs kədərə boğulub, göz yaşları selə dönüb. Əbədi ayrılığın qüssəsinin ən gözəl tərcümanı isə "Sənsiz" olub... Üzeyir bəyin cənazəsi Bülbülün ifasında "Sənsiz" romansının sədaları altında qaldırılaraq Fəxri xiyabana aparılıb...

### Əbədi duyğulardan "danışan" musiqi əsərləri...

Şərqin bir sıra qüdrətli şairləri kimi Nizami Gəncəvinin də poeziyasında bir ahəngdarlıq, ritm var. Şairin əsərləri hər zaman istedadlı bəstəkarlarımızın diqqətini cəlb edib, onları opera, balet, simfonik və kamera əsərləri yaratmağa ilhamlandırıb. Üzeyir bəydən başlayaraq Nizaminin şeirlərinə bir sıra xor əsərləri, vokal miniatürlər - romans və mahnılar bəstələnib. Maestro Niyazi "Xosrov və Şirin" (1942), Əfrasiyab Bədəlbəyli "Nizami" (1947) operalarını, Qara Qarayev "Yeddi gözəl" (1952), Fikrət Əmirov "Nizami" (1984), Tofiq Bakıxanov "Xeyir və Şər" (1990) baletlərini yazıblar. Bu sırada Fikrət Əmirovun ən uğurlu əsərlərindən biri olan "Nizami" (1947) və Məmməd Quliyevin "Xəmsədən damlalar" (1993) simfoniyalarını da qeyd etməliyik.

Nizami Gəncəvinin əruz vəznində yazdığı "Sənsiz" və "Sevgili canan" qəzəllərində də axıcılıq, musiqililik var. Və ayrı-ayrı dövrlərdə, fərqli əsrlərdə yaşayan iki dahi bu iki möhtəşəm əsərdə "görüşüb". Poeziyamızın dahisi Nizami Gəncəvi və musiqimizin dahisi Üzeyir bəy Hacıbəylinin "yaradıcılıq birliyindən" bu iki ölməz romans yaranıb.

Üzeyir bəy Hacıbəyli məşhur romanslarını - "Sənsiz"i 80, "Sevgili canan"ı isə 78 il bundan qabaq bəstələyib. Bu illər ərzində hər iki əsər heç vaxt diqqətdən kənarda qalmayıb. "Sənsiz" də, "Sevgili canan" da hər dəfə səsləndikcə sanki dinləyicisini real aləmdən alıb öz sirli məkanına aparır. Musiqi ilə sözün vəhdətindən yaranan heyrətamiz duyğuların hakim kəsildiyi o məkanda insan öz könül dünyasını aydınca görür, pünhan hissləri ilə həmsöhbət olur.

*Başqa bir yarı necə axtarım, ey nazlı mələk,*
*Bilirəm, sən də dedin: "Yox yarə hacət sənsiz!"*
*Sən mənim qəlbimə hakim, sənə qul oldu könül,*
*Sən əzizsən, mən ucuz, bir heçəm, afət, sənsiz!*

- deyə ayrılıqdan, həsrətdən haray çəkən duyğuları anladır "Sənsiz"...

*Hüsnün gözəl ayətləri, ey sevgili canan!*
*Olmuş bütün aləmdə sənin şəninə şayan.*
*Gəl eylə inayət, mənə ver busə ləbindən,*
*Çünki gözəlin busəsidir aşiqə ehsan.*

- deyə sevginin əbədiliyini aşiqə yalvarış dolu şikayətlə izhar edir "Sevgili canan"... Bu əsərlərdə sözlə musiqi həmahəng olub, ölümsüz hisslərdən "danışır". Və nə qədər bu duyğular var, o qədər də "Sənsiz", "Sevgili canan" romanslarını heyranlıqla dinləyənlər olacaq.

Bu il Nizami Gəncəvinin 880 illiyini qeyd edirik. 2021-ci il "Nizami Gəncəvi ili"dir. Böyük şairin özü və əsərləri barəsində yeni elmi məqalələr yazılır, incəsənət əsərləri yaranır. Aradan nə qədər il də keçsə, yubiley ildönümləri də dəyişsə, hər zaman dahi Nizami yubileyinə ən gözəl töhfələr arasında Üzeyir bəyin "Sənsiz" və "Sevgili canan" romanslarının xüsusi yeri olacaq...

***Zöhrə FƏRƏCOVA, "Azərbaycan"***

# "Arşın mal alan" çinli tamaşaçıların qəlbini yenidən fəth edib

**Azərbaycanın dahi bəstəkarı Üzeyir bəy Hacıbəylinin "Arşın mal alan" operettası növbəti dəfə Çində səhnəyə qoyulub. Çində keçirilən "Bir kəmər, bir yol - Böyük Çin səddi" beynəlxalq folklor və incəsənət festivalı çərçivəsində sentyabrın 16-da Lanfan şəhərindəki İpək Yolu Beynəlxalq İncəsənət Mərkəzində operettanın yeni quruluşda premyerası (konsert versiyası) təqdim olunub.**

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Mədəniyyət Nazirliyi, ölkəmizin Çindəki səfirliyi, Çinin Hebey vilayəti xalq hökuməti, Tiencin şəhər bələdiyyəsi və "ENN Group"un dəstəyi ilə hazırlanan konsert 18 Sentyabr - Milli Musiqi Gününə və Üzeyir bəy Hacıbəylinin doğum gününə həsr olunub.

Çinin dövlət qurumlarının, diplomatların, incəsənət adamlarının və Çin ictimaiyyətinin nümayəndələrinin tamaşa etdiyi konsertdən əvvəl çıxış edən Azərbaycanın Çindəki səfiri Əkrən Zeynallı tarixi İpək yolunun bəşəriyyətin mədəni inkişafında, müxtəlif xalqlar arasında mədəni əlaqələrin inkişafında mühüm rol oynadığını, İpək yolu üzərində yerləşən Azərbaycanın öz nadir mədəni irsi, o cümlədən musiqisi, ədəbiyyatı ilə tarixən diqqət çəkən bir diyar olduğunu bildirib.

Səfir Ə.Zeynallı görkəmli ictimai xadim, dahi bəstəkar, Azərbaycan klassik musiqisinin və müsəlman Şərqində operanın banisi Üzeyir bəy Hacıbəyli haqqında məlumat verərək deyib ki, Azərbaycan peşəkar bəstəkarlıq məktəbinin yaradıcısı olan Üzeyir bəy "Qafqazın konservatoriyası" olan Şuşada böyüyüb. Hələ gənc yaşlarında müsəlman dünyasında ilk opera olan "Leyli və Məcnun"u bəstələyən Üzeyir bəy Hacıbəyli dünya musiqi tarixinə adını yazdırıb.

Vurğulanıb ki, dahi bəstəkarın doğum günü olan 18 sentyabr Azərbaycanda Milli Musiqi Günü kimi qeyd olunur, bu münasibətlə ölkəmizdə "Üzeyir bəy Hacıbəyli" Beynəlxalq Musiqi Festivalı təşkil olunur. Builki festival sentyabrın 18-24-də Qarabağda, Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşada təşkil olunacaq.

Sonra səhnə musiqiçilərin ixtiyarına verilib. Tiencin şəhərinin Mahnı və Rəqs Opera Teatrının orkestrinin və vokalçılarının ifasında "Arşın mal alan" operettası Çin dilində yeni quruluşda təqdim olunub. Əsərin librettosu müasir həyata uyğunlaşdırılaraq, çinli tamaşaçılar üçün daha anlaşılan edilib. Hazırlıq prosesi təxminən 3 ay davam edib.

Tamaşanın baş məsləhətçisi və koordinatoru Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının baş dirijoru və musiqi rəhbəri, beynəlxalq müsabiqələr laureatı, Əməkdar artist Əyyub Quliyev, baş rejissoru Lanfan şəhərindəki İpək Yolu Beynəlxalq İncəsənət Mərkəzinin bədii rəhbəri Klaudia Yanq, opera üzrə kastinq direktoru Li Saofey və Lu Şen, orkestrin dirijoru Sun Cinkay olub. Rolları Çində 1-ci dərəcəli ifaçılardan olan, beynəlxalq müsabiqələr laureatı Van Cınan (Əsgər rolu), beynəlxalq müsabiqələr laureatı Can Yanron (Gülçöhrə rolu) və digərləri ifa ediblər. İfaçıların improvizasiyaları, ifa zamanı arabir Çin elementlərindən də istifadə olunması maraqla qarşılanıb və konsert böyük anşlaqla keçib.

Qeyd edək ki, bu, "Arşın mal alan" operettası Çin ictimaiyyətinə yaxşı tanışdır. Əsər ilk dəfə Çində 1959-cu il mayın 30-da Pekin Eksperimental Teatrında səhnəyə qoyulub. Diqqətçəkən məqam odur ki, "Arşın mal alan" Çində səhnəyə qoyulan ilk xarici operetta olub. Operetta həmin il ərzində Uhan Eksperimental Opera Evi və Tiencin Dövlət İncəsənət Teatrı da daxil olmaqla, 3 teatr truppası tərəfindən Çinin müxtəlif şəhərlərində təqdim olunub. Sonrakı illərdə də əsər bir neçə dəfə səhnələşdirilib. Sonuncu dəfə isə 2010-cu ildə Pekində Çin Milli Operasının truppası tərəfindən səhnəyə qoyulub.

# Qarabağın dirçəlişində sənin də töhfən olsun!

## "Azercell" abunəçiləri üçün Qarabağ Dirçəliş Fonduna birbaşa ianə imkanı yaradıldı

"Azercell Telekom" MMC Qarabağın dirçəliş prosesində iştirak edib, işğaldan azad edilmiş ərazilərin yenidən qurulması istiqamətində görüləcək tədbirlərə dəstək olmaq istəyən abunəçilərinə Qarabağ Dirçəliş Fonduna ianə etmək üçün xüsusi imkan yaradıb.

Sadəcə bir SMS-lə Qarabağda bütün sahələrdə bərpa-quruculuq və abadlıq işlərinin aparılması üçün fonda ianə etmək mümkündür.

Azercell

Abunəçilər mobil telefondan 8112 qısa nömrəsinə 1, 3, 5, 10, 20, 50 rəqəmlərini yazıb SMS göndərməklə öz balanslarından 1 AZN, 3 AZN, 5 AZN, 10 AZN, 20 AZN və 50 AZN məbləğində ianə edə bilərlər.

SMS-lərin göndərilməsi üçün abunəçilərdən xidmət haqqı tutulmur!

Qarabağ Dirçəliş Fondu Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin bərpası və yenidən qurulması, habelə dayanıqlı iqtisadiyyata və yüksək rifaha malik regiona çevrilməsi istiqamətində həyata keçirilən tədbirlərə maliyyə dəstəyi göstərilməsi və sərmayələrin cəlb edilməsi istiqamətində fəaliyyət göstərir **(https://qdf.gov.az)**.

"Azercell Telekom" MMC abunəçiləri üçün bu imkanı yaratmaqla hər kəsi Qarabağda aparılan quruculuq işlərini dəstəkləməyə, bu mühüm missiyanın bir parçasına çevrilməyə çağırır.

# Şəhidlərin əziz xatirəsi anılıb



Sentyabrın 16-da Həzi Aslanov adına Ordu və İdeoloji Mədəniyyət Mərkəzində Vətən müharibəsində torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə yüksələn iki qardaş - Bəhrəm və İman Məmmədzadələrin xatirəsinə həsr olunan tədbir keçirilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbirdə şəhidlərin ailə üzvləri və yaxınları, Qarabağ əlilləri, hərbi qulluqçular və ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və torpaqlarımızın azadlığı uğrunda canından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə çıxış edənlər şəhid qardaşların qısa və şərəfli döyüş yollarından, onların Vətən müharibəsində göstərdikləri cəsarətlərindən danışıblar. Vurğulanıb ki, Bəhrəm və İman qardaşları kimi oğullar hər zaman xalqımızın yaddaşında yaşayacaqdır.

Sonda Həzi Aslanov adına Ordu və İdeoloji Mədəniyyət Mərkəzinin solistlərinin vətənpərvərlik mövzusunda ifaları olub.

# "Üç qardaş - 2021" təliminin növbəti mərhələsi icra edilib

Azərbaycan, Türkiyə və Pakistan respublikaları arasında hərbi sahədə əməkdaşlıq haqqında sazişə əsasən Bakıda keçirilən "Üç qardaş - 2021" beynəlxalq təliminin növbəti mərhələsi uğurla icra olunub.

Müdafiə Nazirliyindən AZƏRTAC-a bildirilib ki, təlimin planına uyğun olaraq xüsusi təyinatlılar döyüşə hazır vəziyyətə gətirilərək bölmələrimizin müdafiəsinin dərinliyinə daxil olan şərti düşmən qruplaşmasının məhv edilməsi tapşırıqlarını yerinə yetiriblər.

Sentyabrın 20-dək davam edəcək təlimlərin bu mərhələsində də qardaş ölkələrin xüsusi təyinatlıları yüksək peşəkarlıq nümayiş etdiriblər.



# Ağdamda beynəlxalq simpozium keçirilib





Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin illər öncə böyük müdrikliklə söylədiyi "Bir millət iki dövlət" kəlamı Türkiyə-Azərbaycan dostluğunun, qardaşlıq və əməkdaşlığının bütün istiqamətlərində öz təsdiqini tapmaqdadır. Türkiyə bir qardaşın edə biləcəklərini bütün zamanlarda Azərbaycan üçün etmişdir.



Bakının erməni-bolşevik işğalından azad edilməsinin 103-cü ildönümü sentyabrın 15-də ölkəmizdə təntənə ilə qeyd edildi. Nuru paşanın rəhbərlik etdiyi ordu daşnak-bolşevik birləşmələrini məğlubiyyətə uğratdıqdan sonra yenicə qurulan Azərbaycan hökuməti Gəncədən Bakıya köçdü. O, ağır döyüşlərdə yüzlərlə türk əsgəri şəhid oldu. Bu gün qədirbilən xalqımız onların xatirəsini uca tutur, böyük məhəbbət və ehtiramla yad edir.

Çox qürurvericidir ki, Türkiyə-Azərbaycan əlaqələrinin miqyası arzuolunan səviyyədən də genişdir. Hərbi-iqtisadi, elmi-mədəni ilişkilərimiz gündən-günə dərinləşir. Qarabağın Ermənistan silahlı qüvvələri tərəfindən işğalına son qoyulması ilə nəticələnən 44 günlük İkinci Vətən müharibəsində türk qardaşlarımızın siyasi-diplomatik və mənəvi yardımı parlaq qələbəmizi labüd etdi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin yenilməz sərkərdə qüdrəti, Azərbaycan əsgərinin qəhrəmanlığı qarşısında düşmənin diz çökməkdən, təslim olmaqdan başqa yolu qalmadı.

Qarabağ zəfərindən sonra Azərbaycan-Türkiyə əlaqələri yeni mərhələyə daxil olmuşdur. Bu gün birgə hərbi təlimlər davam edir. Ermənilərin tarixdə misligörünməmiş bir vəhşiliklə dağıtdıqları, odlara qalayıb viran qoyduqları şəhərlərin, kəndlərin, yolların, körpülərin, tarixi abidələrin, dəyəri bir neçə milyon dollarla hesablanan sosial infrastrukturun yenidən qurulmasında, bərpa edilməsində türk qardaşlarımız yenə də yanımızdadır. Heç şübhəsiz, bu birlik gücümüzə güc qatır, düşmənlərin yeni təxribat planlarını əngəlləyir.

Bu günlər Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun təşəbbüsü və təşkilatçılığı ilə Qarabağda - Ağdamda beynəlxalq simpozium keçirilmişdir. "Müstəqilliyinin 30-cu ilində Azərbaycan-Türkiyə əlaqələri və beynəlxalq münasibətlər" mövzusunda keçirilən simpoziuma qardaş Türkiyənin bir qrup nufuzlu elm xadimi qatılmışdır.

Tədbir iştirakçıları öncə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Quzanlı qəsəbəsində ucaldılmış abidəsi önünə qızılgüllər qoydular. Sonra simpozium Heydər Əliyev Mərkəzində işinə başladı. Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov çıxış edərək Azərbaycanın və qardaş Türkiyənin tanınmış elm xadimlərinə belə bir möhtəşəm elmi konfransın Ağdamda keçirilməsinə qərar verdikləri üçün minnətdarlığını bildirdi. Simpoziumun işinə uğur arzulayan natiq parlaq qələbə ilə başa çatan 44 günlük müharibədən sonra Ağdamda yaşanan xoş ovqat, yüksək əhvali-ruhiyyə barədə qonaqlara məlumat verdi: "Müzəffər Ali Baş Komandan İlham Əliyevin "dəmir yumruğu", qəhrəman əsgər və zabitlərimizin hünəri və türk qardaşlarımızın güclü dəstəyi ilə Qarabağın, eləcə də doğma Ağdamın işğaldan azad olunması 30 ilin həsrətinə son qoydu, illərdən bəri qaysaq bağlamayan yaralarımıza məlhəm oldu. Hər kəsin eynəsi açıldı, üzü güldü. Oğlu şəhid olan analar başını dik tutub göz yaşlarını "ürəyinə axıdıb qürurla "Təki Vətən var olsun" dedi. O çətin günlərdə, o şərəfli anlarda hamımızın ürəyi Azərbaycan əsgəri ilə bir döyündü. Nə xoş ki müharibəni qələbəylə bitirdik. Doğma Qarabağımız azadlığa qovuşdu. Müzəffər Ali Baş Komandan İlham Əliyevin adı müstəqil Azərbaycan dövlətinin tarixinə qızıl hərflərlə yazıldı. İndi bizim vəzifəmiz tikib-qurmaq, Qarabağın hər qarışını cənnətə döndərmək, xalqımızın sülh, əmin-amanlıq şəraitində yaşamaq, dinc quruculuqla məşğul olmaq niyyətini dünyaya çatdırmaqdır. Qoy tarixçi alimlərimiz Qarabağın tarixini daha dəqiq öyrənsinlər və təbliğ etsinlər. Burada hər daş, hər qaya canlı tarixdir. Azərbaycanın ayrılmaz parçası olan Qarabağa xoş gəlmisiniz.

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti İsa Həbibbəyli tədbirdə çıxış edərək Azərbaycanın son 30 ildə keçdiyi çətin və şərəfli, keşməkeşli yoldan ətraflı söhbət açdı. Müstəqillik illərinin iki mərhələdən ibarət olduğunu bildirən natiq Ulu Öndər Heydər Əliyevin tarixi xidmətlərini vurğuladı. Qeyd etdi ki, son dərəcə çətin, mürəkkəb tarixi şəraitdə Heydər Əliyev Azərbaycanı xaosdan, qardaş qırğınından, dövləti məhv olmaq, parçalanmaq təhlükəsindən xilas etdi, "Əsrin müqaviləsi"ni imzalamaqla ölkəmizin dinamik iqtisadi inkişafına etibarlı zəmin yaratdı: "Heydər Əliyev siyasi kursuna sarsılmaz sədaqət nümayiş etdirən Prezident İlham Əliyev isə Azərbaycana rəhbərlik etdiyi 18 ildə müdrik siyasəti, uğurlu diplomatiyası ilə müstəqilliyimizi daha da möhkəmləndirdi, dövlətimizi söz sahibinə çevirdi. Müzəffər Ali Baş Komandan İlham Əliyev mahir sərkərdə bacarığı ilə dünya hərb tarixinə heyrət doğuran yeni səhifələr yazdı, taleyin ona qismət etdiyi xilaskarlıq missiyasını şərəflə reallaşdırıb Qarabağın 30 illik işğalına son qoydu. Bütün bunlar müstəqillik tariximizin qürurla söz açılası parlaq səhifələridir".

Onu da qeyd edək ki, akademik İsa Həbibbəyli Qarabağa səfəri çərçivəsində böyük ədib Cəlil Məmmədquluzadənin ömür-gün yoldaşı Həmidə xanım Məmmədquluzadənin Ağcabədi rayonunun Kəhrizli kəndindəki ev-muzeyində olmuş, yeni kitablarını muzeyə hədiyyə etmişdir. İsa müəllim Cəlil Məmmədquluzadənin Kəhrizli kənd qəbiristanlığında 1922-ci ildə dəfn edilmiş qardaşı Ələkbərin qəbrini ziyarət etmiş, məzarı üstünə tər qızılgüllər qoymuşdur.

Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun direktoru professor, tarix elmləri doktoru Kərim Şükürov çıxış edərək simpoziumun məqsəd və məramlarını açıqladı. Qeyd etdi ki, Azərbaycan-Türkiyə əlaqələri müasir dövrdə yeni məna kəsb edir, öz aktuallığı ilə diqqət çəkir: "Kökü, soyu, dini, inancı eyni olan, lakin ayrı-ayrı dövlətlərdə yaşayan eyni millətin dostluğu, qardaşlığı, birliyi yolunda məkrlə qurulan, on illərboyu davam edən maneələr artıq aradan qaldırılmış, iki qardaş bir-birinə qovuşmuşdur. Neyləmək olar ki, bu, bəzi yaxın qonşularımızda hədsiz dərəcədə qıcıq yaradır. Nə zamandır ki, biz Azərbaycan-Türkiyə qardaşlığının təntənəsinə aparan, hər addımı qürur doğuran şərəfli bir yolla addımlayırıq. Şükürlər olsun ki, bir millətin iki qüdrətli oğlu - xidmət etdikləri böyük amallar uğrunda mübarizədə qazandıqları zəfərlərlə adlarını türk dövlətləri tarixinə qızıl hərflərlə yazmış Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Cumhuriyyətinin başqanı Rəcəb Tayyib Ərdoğan bizi dostluq, qardaşlıq, əməkdaşlıq yoluna yönəldir. Əminəm ki, tarixçi alimlərimiz öz bilik və bacarıqları, xoş məramları ilə bu müqəddəs yolun nurunu, ziyasını daha da artıracaqlar".

Ağcabədi Regional Mədəniyyət İdarəsinin rəisi Qabil Həsənovun çıxışından sonra simpozium ayrı-ayrı iclaslarla öz işini davam etdirmişdir. Azərbaycanın dövlət müstəqilliyinin 30 illiyi (1991-2021) tarixi baxış mövzusunda AMEA Tarix İnstitutunun direktoru, professor, tarix elmləri doktoru Kərim Şükürov, "Türkiyənin ictimai rəyində Xocalı qətliamı və sonrasında Qarabağ problemi" mövzusunda İstanbul Universitetinin professoru, tarix elmləri doktoru Ramazan Erhan Çüllü, "Qarabağ zəfərinə doğru gedən prosesdə Türkiyə-Azərbaycan strateji əlaqələri" mövzusunda Artvin Çoruh Universitetinin rektoru, professor, tarix elmləri doktoru Mustafa Sıtkı Bilgin, "İkinci Qarabağ müharibəsi: milliləşmənin bir uğur hekayəsi, sovet dövründən qalma mirası təmizləmə və qərb strateji düşüncəsi" mövzusunda jurnalist Ardan Zentürk, "Cenevrə konvensiyaları işığında Qarabağ müharibəsinin təhlili, Qarabağ probleminin həllində Asiyada əməkdaşlıq və ehtimal tədbirləri konfransı və türk şurası" mövzusunda Mərmərə Universitetinin professoru, tarix elmləri doktoru Alaeddin Yalçınkaya, "İkinci Qarabağ müharibəsi dünya kütləvi informasiya vasitələrində" mövzusunda AMEA Tarix İnstitutunun şöbə müdiri, professor, tarix elmləri doktoru Mais Əmrahov, "Batumi Anlaşmasından Şuşa Bəyannaməsinə - Türkiyə-Azərbaycan əlaqələri" mövzusunda Mərmərə Universitetinin professoru, tarix elmləri doktoru Okan Yeşilot, "Qarabağ və Zəngəzur dəhlizinin geosiyasəti" mövsuzunda Yıldız Texniki Universitetinin professoru, tarix elmləri doktoru Mehmet Akif Okur, "Mehri dəhlizinin Qafqazda əhəmiyyəti və torpaq mübadilə formulu" mövzusunda Ankara Yıldırım Beyazid Universitetinin professoru, tarix elmləri doktoru Salih Yılmaz, "Qarabağ xanlığı 1805-ci ildən 1822-ci ilədək: yalanlar və həqiqətlər" mövzusunda AMEA Tarix İnstitutunun şöbə müdiri, dosent, tarix üzrə fəlsəfə doktoru Hacı Həsənov və digər tarixçi alimlər müxtəlif mövzularda maraqlı elmi məruzələr etmişlər. Simpoziumda bütövlükdə 24 məruzə dinlənilmişdir.

Ağdam Musiqi Məktəbinin həyətində açıq havada təqdim edilən vətənpərvərlik ruhuna köklənmiş konsert proqramını qonaqlar xüsusi heyranlıqla dinləmişlər.

Səhəri gün isə qonaqlar işğaldan azad edilmiş Ağdam şəhərinə səfər etmişlər. Ağdam şəhərinin qalıqlarını, faşist xislətli ermənilərin daş üstə daş qoymadığını ürək ağrısı ilə seyr edən türk qardaşlarımızın fikrini bir cümlə ilə Atatürk Mədəniyyət Dil və Tarix Yüksək Qurumunun sədri Muhammet Hekimoğlu belə ifadə etdi: "Bütün bunlar dünyada barbarlığın ən dolğun mənzərəsidir".

***Lazım QULİYEV,***
***"Azərbaycan"***


## Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası maşın və avadanlıqların satın alınması məqsədilə elektron *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İŞTİRAK HAQQI: 30.00 (otuz) manat**
**TƏŞKİLAT: AZƏRBAYCAN DÖVLƏT BƏDƏN TƏRBİYƏSİ VƏ İDMAN AKADEMİYASI**
**VÖEN: 1500374911**
**H/HESABI: AZ20AIIB38090019440138430118**
**BANKIN ADI: "KAPİTAL BANK" ASC GƏNCLİK FİLİALI**
**KOD: 200189**
**VÖEN: 9900003611**
**MÜXBİR HESABI: AZ37NABZ01350100000000001944**
**SWİFT BİK: AIIBAZ2X**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. *Tenderdə iştirak etmək üçün yazılı müraciət.*
2. *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*
3. *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
4. *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
5. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış (arayışın alınma tarixi: sentyabr 2021-ci il).*
6. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2020-ci il).*
7. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (sentyabr 2020-ci il - sentyabr 2021-ci il müddətinə).*
8. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri (qeydiyyat sənədlərinin sentyabr 2021-ci il tarixə notarial qaydada təsdiq olunmuş nüsxələri).*
9. *Digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **08.10.2021-ci il saat 11:00-a** qədər, tender təklifi və bank təminatını isə **18.10.2021-ci il saat 11:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **19.10.2021-ci il saat 11:00-da** açılacaqdır.

***QEYD:*** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılacaqdır.*

***Tender komissiyası***





# Daxili İşlər Nazirliyi avtomobil nəqliyyatında sərnişindaşımaya nəzarəti gücləndirib

Pandemiya dövründə vətəndaşların sağlamlığı naminə avtomobil nəqliyyatında sərnişindaşımaya nəzarət tədbirləri gücləndirilib.

Bu barədə AZƏRTAC-a Daxili İşlər Nazirliyinin Mətbuat xidmətinin kütləvi informasiya vasitələri və ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi, polis mayoru Elşad Hacıyev məlumat verib.

E.Hacıyev bildirib ki, koronavirus (COVID-19) infeksiyasının kütləvi yayılmasının qarşısının alınması məqsədilə Nazirlər Kabinetinin qərarı ilə həftə sonları - şənbə və bazar günləri şəhərlərarası-rayonlararası və şəhərdaxili-rayondaxili sərnişindaşıma fəaliyyətinə qadağaların qoyulmasına baxmayaraq, bu qaydalara bəzi şəxslər tərəfindən əməl edilmir.

Kiçik tutumlu avtobuslarla, eləcə də oturacaqlarının sayı sürücü oturacağından başqa 9-dək olan mikroavtobus tipli taksi minik avtomobilləri ilə şəhərlərarası - rayonlararası qanunsuz sərnişindaşımaların həyata keçirilməsi halları müşahidə olunur.

Müşahidə olunan neqativ hallarla bağlı həftə sonları kiçik tutumlu avtobuslarla, eləcə də oturacaqlarının sayı sürücü oturacağından başqa 9-dək olan mikroavtobus tipli taksi minik avtomobilləri ilə şəhərlərarası-rayonlararası sərnişindaşımaların qarşısının alınması üçün şəhər və rayon ərazisində yerləşən avtovağzallarda, avtostansiyalarda, habelə kənd və qəsəbələrin giriş-çıxış yerlərində nəzarət-profilaktik tədbirlər çərçivəsində reydlər keçirilə bilər.

"Bunu nəzərə alaraq, diqqətə çatdırıram ki, "Fərqlənmə nişanı", "Taksi" tanınma nişanları, taksometr və digər məlumat göstəriciləri olmadan, eləcə də pandemiya ilə əlaqədar qanunvericiliklə müəyyən olunmuş tibbi tələblərə (fərdi qoruyucu vasitələrdən istifadə edilməsi, sosial məsafənin qorunması məqsədilə sürücü ilə sərnişinin təmasına maneə olan şəffaf arakəsmələrin quraşdırılması və sairə) riayət edilmədən sərnişin daşımalarının həyata keçirilməsinin qarşısı alınacaq.

Hərəkət iştirakçılarını müəyyən olunan qayda və tələblərə əməl etməyə, koronavirus (COVID-19) infeksiyasının kütləvi yayılmasının qarşısının alınması məqsədilə intizam nümayiş etdirməyə çağırıram. Bu tələb, hər birimizin sağlamlığı ilə əlaqəlidir. Qeyd olunan tələbləri pozan şəxslər qanunvericiliklə müəyyən edilmiş qaydada inzibati məsuliyyətə cəlb olunacaq", - deyə E.Hacıyev bildirib.



# Dünya Bankı pozuntulara görə “Doing Business” hesabatlarının nəşrini dayandırdı

## Hesabatlarda Azərbaycanın da ziyanına saxtakarlıqlar edilibmiş

**Dünya ölkələrində biznes mühitin qiymətləndirilməsində əsas indikatorlardan biri sayılan “Doing Business”in hesabatlarında pozuntular aşkarlandığı üçün fəaliyyəti dayandırılmışdır.**

Bununla bağlı Dünya Bankının yaydığı məlumatda bildirilir ki, artıq araşdırmalara start verilmişdir. Pozuntuların təsirinə məruz qalan ölkələrlə bağlı hesabatlara dəyişikliklərin edilməsi nəzərdə tutulur. Bu məqsədlə araşdırma aparılan müddətdə Dünya Bankı tərəfindən hesabatların dərc edilməsi dayandırılacaqdır.

Dünya Bankı Qrupu “Doing Business” hesabatı ilə əlaqədar aşağıdakı məzmunda açıqlama yaymışdır:

“17 illik mövcudluğu müddətində “Doing Business” hesabatı biznes fəaliyyəti ilə məşğul olma xərclərini ölçmək istəyən ölkələr üçün dəyərli vasitə olmuşdur. “Doing Business” indikatorları və metodologiyası hansısa ayrıca götürülmüş ölkəni nəzərə almır, əksinə, ümumi biznes mühitinin yaxşılaşdırılmasına kömək edir.

2017 və 2019-cu illərin oktyabr ayında dərc olunmuş “Doing Business 2018” və “Doing Business 2020” hesabatlarında məlumatların dəyişdirilməsi ilə bağlı bir sıra pozuntuların olması məlum olmuşdur. Məlumatlarda bu dəyişikliklər “Doing Business” metodologiyasına uyğun olmamışdır.

Məlumatların və təhlilimizin etibarlığı və qərəzsizliyi son dərəcədə vacibdir və buna görə biz dərhal aşağıdakı tədbirləri görürük:

Biz son beş “Doing Business” hesabatı üçün institusional məlumatların araşdırılması prosesindən sonra baş verən məlumat dəyişikliklərinin sistematik şəkildə nəzərdən keçirilməsi və qiymətləndirilməsini aparırıq.

Biz Dünya Bankı Qrupunun müstəqil Daxili Audit funksiyasından “Doing Business” üçün məlumatların toplanması və ekspertizası proseslərinin və məlumatların bütövlüyünü qorumaq üçün nəzarət sisteminin auditini aparmağı xahiş etmişik.

Biz müəyyənləşdirilmiş faktlara əsaslanaraq hərəkət edəcəyik və pozuntuların təsirinə ən çox məruz qalmış ölkələr üzrə məlumatları retrospektiv olaraq düzəldəcəyik.

Dünya Bankının İcraçı Direktorlar Şurasına, habelə məlumat pozuntularının təsirinə ən çox məruz qalmış ölkələrin hökumət orqanlarına vəziyyət haqqında məlumat verilmişdir.

“Doing Business” hesabatının dərc edilməsi qiymətləndirməmizin aparıldığı müddətdə dayandırılacaq”.

WilmerHale şirkəti tərəfindən aparılan yoxlama Çinin mövqeyinin (78) yaxşılaşdırılması üçün bank rəhbərliyinin, o cümlədən həmin dövrdəki baş icraçı direktor Kristalina Georgiyevanın (hazırda BVF-nin idarəçi direktoru), eləcə də Dünya Bankının prezidenti Jim Yong Kimin ekspert heyətinə təzyiq göstərdiyini aşkara çıxarmışdır.

Araşdırmada Azərbaycanla da bağlı bir sıra məqamlara aydınlıq gətirilmişdir. Belə ki, “Doing Business” hesabatının əsas rəhbərlərindən biri, baş direktorun müşaviri Simeon Dyankov ekspert qrupuna Azərbaycanda biznes mühiti və islahatlarla bağlı məlumatların etibarlılığını təkrar yoxlamağı tapşırmışdır. Ekspert qrupu bir sıra islahatların rəsmi şəkildə tətbiq edildiyini təsdiqləsə də, Dyankov israrla 3 kriteriyada Azərbaycanın mövqelərini “dondurmuş” və islahatlarla bağlı rəsmi sənədləri (fərman, sərəncam və qərarlar) nəzərə almamışdır. Nəticədə, “Doing Business 2020” hesabatının son versiyasında Azərbaycan 2 pillə geriləyərək, 34-cü yerdə qərarlaşmış və “İslahatçılar” siyahısına düşə bilməmişdir.

“Doing Business” hesabatının dərc olunmasının dayandırılması ilə bərabər biznes və investisiya mühitini qiymətləndirmək üçün yeni yanaşmanın tətbiqi gözlənilir.

***Bahadur İMANQULİYEV,***
***“Azərbaycan”***

# Beynəlxalq aləm

# Dünya sual qarşısında

## İntiharların qarşısını necə almalı



Dünya ekspertlərinin qənaətinə əsasən, lokdaunlar intiharlara yol açır. Statistika dəhşətlidir: bir çox tədqiqatlar koronavirusun müxtəlif yaşlı insanların, xüsusilə yeniyetmələrin və gənclərin psixikasına mənfi təsirini sübut edir. Sosial təcrid durumu intiharın adi hala çevrilməsinə səbəb olmuşdur. Bəs nə etməli? Yeniyetmə uşaqları bundan necə qorumaq olar?

Psixiatrlar həyəcan təbili çalırlar: psixi sağlamlığa laqeyd yanaşmaq olmaz! Uşaqlar təcrid, qorxu və çaşqınlıq vəziyyətindədir. Onlayn dərslərə, dostlarla videozənglərə, sosial şəbəkələrdə forum və ya xəbər lentlərinə dalma - pandemiya günlərində yeniyetmələrin həyatı belə keçir. Uzun müddətdir virtual reallıq əsl həyat tərzini əvəz edir və bunun nəticələri fəlakətlidir. Lokdaunlar qorxuların güclənməsinə və nəticədə intihara gətirib çıxarır.

Dünyada təxminən hər 12 saatdan bir intihar hadisəsi baş verir. 2021-ci ilin əvvəlindən avqustun 31-nə qədər hesablamalar aparılıb: təkcə İtaliyada 413 intihar və 348 intihara cəhd hadisəsi baş verib. Bu, Elmi-Tədqiqat Psixiatriya və Neyroelmlər İnstitutu nəzdində BRF Fondunun İntiharların Monitorinqi Mərkəzinin məlumatıdır.

COVID-19 müxtəlif yaşlarda olan insanların psixi sağlamlığına əhəmiyyətli təsir göstərməklə yanaşı, səhiyyə sahəsində çoxsaylı boşluqları da üzə çıxarmışdır. Bununla əlaqədar Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) hökumətləri investisiyaları artırmaqla bu sektora dövlət yardımını yaxşılaşdırmağı və möhkəmləndirməyi tələb edən mühüm qətnamə qəbul etmişdir.

ÜST-ün məlumatına görə, intihar halları daha çox Avropa ölkələrində qeydə alınır. Əhalinin, əsasən, ən gənc təbəqəsi əziyyət çəkir. Böyüklər tərəfindən onların üzərinə qoyulan böyük gözləntilər, həddindən artıq rəqabət, tamamilə reallıqdan uzaq olan standartlara uyğun gəlmək arzusu və s. bu kimi intihar səbəbləri bir çox amillərdən doğur və pandemiya bu kədərli vəziyyəti yalnız mürəkkəbləşdirir.

ÜST-ün Avropa üzrə regional direktoru Hans Henri P. Klügenin dediyinə görə, indiyə qədər bir çox ölkələrdə dövlət psixiatriya klinikaları mövcuddur: “Buna görə də psixi sağlamlıq sahəsinə daha çox investisiya qoymaq, onu ilkin təcili yardım sahəsinə inteqrasiya etmək lazımdır”. O həmçinin bildirmişdir ki, Avropa İttifaqına üzv olan bütün ölkələr bu problemlər barədə məlumatların yayılması, xidmətlərə bərabər çıxış əldə edilməsi, həmçinin adekvat səhiyyə siyasətinin inkişafı məqsədilə psixiatriyanın təbliğinə dair öhdəlik götürməlidirlər.

“Biz məktəblərin bağlanması, insanların təcrid edilməsi, işsizlik, qorxu və rahatsızlıqların dağıdıcı təsirlərinin şahidi olduq. Aydındır ki, bu məsələdə başqa mövqe ola bilməz və bu mövzular diqqət mərkəzində olmalıdır”. Bu sözləri isə ÜST-ün Avropa regionunda səhiyyə strategiyaları və sistemləri şöbəsinin direktoru Nataşa Azzopardi-Muskat demişdir.

Yeri gəlmişkən qeyd edək ki, “Tik Tok” kimi bəzi sosial şəbəkələr yeni funksiyaları inteqrasiya etmək və bu cür problemlərlə mübarizə aparan insanların dəstəyini genişləndirmək qərarına gəlib. Yeniliklərə psixi sağlamlıq haqqında təlimatlar daxildir və “intihar” kimi sözlər axtaran istifadəçilər dəstək əldə etmək üçün həmin resurslara yönləndirilir.

Amerika Onkologiya Cəmiyyətinin alimi Korin Liç tərəfindən aparılan bir araşdırma insanların sağlamlığı və zehni vəziyyətinin pandemiya şəraitində pisləşdiyini sübut edib. Bu, xüsusilə ən həssas insanlara aiddir. Rahatsızlıqlar, depressiv pozuntular, həddindən artıq stres - bu yük daim insanların üzərindədir və yaranmış mövcud vəziyyət onu daha da ağırlaşdırır.

Ümumiyyətlə, koronavirusun, xüsusilə, lokdaun zamanı, sosial təcrid vəziyyətində insanların psixi sağlamlığına mənfi təsirini sübut edən bir çox tədqiqatlar var. Bununla əlaqədar sentyabrın sonunda ÜST psixi sağlamlıq məsələləri üzrə yeni Pan-Avropa Koalisiyası yaradacaq. O, mövzu üzrə laboratoriyanın yaradılması və inkişafı üçün platforma olacaq.

ABŞ-dakı Ohayo Universitetinin Psixoloji məsləhət və yardım xidməti isə psixi sağlamlıq haqqında məlumat yaymaq üçün müasir texnologiyalara müraciət etmək qərarına gəlib. Belə ki, “Koqnito” adlı interaktiv proqram layihəsi yaradılıb ki, onun da məqsədi intiharların qarşısının alınması və istifadəçilərin informasiya modulları vasitəsilə maarifləndirilməsidir. Məlumat üçün bildirək ki, “Koqnito” - həyatda asanlıqla tətbiq edilən müxtəlif informasiya kitabçalarını təklif edən aktual interaktiv proqramdır. Bu model tələbələr üçün həmyaşıdlarında pozuntuların əlamətlərini tanımaq və söhbət zamanı onlara mürəkkəb mövzulara toxunmağı öyrətmək üçün yaradılmışdır.

Azərbaycan Tibb Universitetininin rektoru, Səhiyyə Nazirliyinin baş psixiatrı və psixi sağlamlıq üzrə milli koordinatoru Gəray Gəraybəyli müsahibələrindən birində deyib ki, intiharla bağlı məsələdə Azərbaycanı digər ölkələrdən ayırmaq olmaz və intiharların bütün dünyada artması qabaqcadan proqnozlaşdırılıb. Bir çox ölkələrlə müqayisədə Azərbaycanda intiharların sayı azdır. İntiharın artması ümumi psixoloji əsəb gərginliyi ilə əlaqəlidir. Elmi tərəqqi, məlumatların, işin çoxalması, insanların asudə vaxtının, yaxınlarla ünsiyyət üçün imkanın az olması, gərginlik, maliyyə və sosial problemlərin artması intihara səbəb olur.

İndi bütün bunlara daha bir bəla - koronavirus pandemiyası əlavə olunub və təəssüf ki, son illər ölkəmizdə də intihar və intihara cəhd hadisələrinin sayı artır. Bir müddət əvvəl Baş Prokurorluğun mətbuat xidməti ictimaiyyətə növbəti videomüraciət təqdim etmişdir. Müraciətdə deyilir: “Müasir dövrdə cəmiyyətin sağlam gələcəyini təhdid edən sosial problemlərdən biri də intihardır. Müxtəlif psixoloji və ya sosial problemlərin nəticəsi olaraq hər il minlərlə insan öz istəyi ilə həyatına son qoyur. Təəssüf ki, təkcə 2021-ci ilin 6 ayı ərzində ölkə ərazisində baş vermiş intihar hadisələri nəticəsində 322 nəfər həyatını itirib. Bu faciəvi sonluqdan qaçmaq üçün psixoloji dəstəyə ehtiyacı olan insanlara laqeyd yanaşmamalıyıq. Həyat və insanlar sandığın qədər əzabverici deyil, dəyişməli olan baxış bucağındır! Qaranlıqdan sonra günəş mütləq doğacaq, həyatın kontrolunu ələ al!”

***Rizvan CƏFƏROV,***
***“Azərbaycan”***

# Günün idman manşeti

# Təkcə qol çatmadı

## “Qarabağ” UEFA Konfrans Liqasına heç-heçə ilə başladı



Xüsusilə cinah ötürmələrinə üstünlük verən komandamız ikili mübarizələrdə də İsveçrə klubundan güclü idi. Qapıya uzaqdan vurulan zərbələrdən sonra geri qayıdan topların hamısına “Qarabağ” yiyələndi. Bir sözlə, “Qarabağ” meydançanın bütün zonalarında sona qədər mübarizə aparırdı. Amma yaradılan bütün imkanlara baxmayaraq, qol vurulmaması Qurban Qurbanovun komandasına

Q.Qurbanov “Növbəti dəfə hücumçu transferi etmək istəyirsinizmi” sualına isə belə cavab verdi: “Bu, mənə ən çox verilən sualdır. Rəqib “Neftçi” ilə oyuna baxıb və İbrahima Vadjiyə qarşı xüsusi diqqət ayırdı. Komandamda hücumçulardan başqa digər oyunçular bombardir olsa, buna təəccüblənmərəm. Hazırda transfer dönəmi bitib. Ən azı yanvaradək gözləyəcəyik. Bu gün komandamdakı hər futbolçudan razıyam”.

Təcrübəli baş məşqçi qrupdan çıxmaq şansları barədə bunları diqqətə çat-



*Əvvəli 1-ci səh.*

“Qarabağ”-”Bazel” matçında məhz bunun şahidi olduq. Ağdam klubu meydançanın “Bazel”ə aid hissəsində tətbiq etdikləri pressinqlə qonaqların oyun qurmasına imkan vermədi. Qısa ötürmələrlə oyunu meydançanın rəqibə aid olan hissəsinə keçirən ağdamlılar itirilən hər topdan sonra İsveçrə təmsilçisinə boş zona buraxmırdılar. Onu da əlavə edək ki, müdafiənin mərkəzində daha sayıq görünən İsveçrə klubu cinahlarda heç də fəal deyildi. Çünki sağ və ya sol cinah müdafiəçiləri hücuma qoşularkən itirilən toplardan sonra geriyə qayıtmaqda ciddi problem yaşayırdılar. Bu səbəbdən, yəni hücumdan müdafiəyə çəkilərkən say baxımından geri qalan “Bazel” matçın son 30 dəqiqəsində qapısı qarşısında təhlükəli epizodlar yaşamalı olurdu.

mükəmməl oyununu qələbə ilə tamamlamağa imkan vermədi.

Qarşılaşmadan sonra “Qarabağ”ın baş məşqçisi Qurban Qurbanov komandasının çıxışını belə dəyərləndirdi: “Çatışmayan bir qol idi. Çox sürətli və dinamik komandaya qarşı oynadıq. İlk hissənin 10 dəqiqəsi düşündüyümüz kimi alınmadı. Oyunun gedişində bəzi dəyişikliklər etdik və rəqibə istədiyi kimi oynamağa fürsət vermədik”. Baş məşqçi daha sonra bildirdi: “Qarşıdakı görüşlərdə buna nail olacağımıza inanıram. Futbolçularda yorğunluq hiss etmədim və bu səbəbdən iki dəyişikliklə kifayətləndim. Düşünürəm ki, oyunçular sonadək tempi saxlaya bildilər. Bu, məni qane edirdi. Oyunçular bir-birilərini yaxşı anlayırdılar. Onların 90 dəqiqə oynamağa gücləri çatdı. Futbolçulardan razı qaldım. Belə oyunlarda qol vurmaq üçün həddindən artıq istəkli oluruq. Bəzən qapıçının yaxşı oyunu buna mane olur”.

dırdı: “Hər turnirdə maksimum nəticə əldə etmək niyyətindəyik. Son 4-5 ildə futbol elə səviyyəyə çatıb ki, istənilən komanda düşünmədiyimiz nəticəni əldə edir. Hər komanda bizə qarşı ciddi hazırlaşır. Qrupdakı rəqiblər arasında böyük fərqin olduğunu deyə bilmərik. Mən və futbolçular qarşımıza məqsəd qoymuşuq. Sonadək mübarizə aparıb ən yaxşı nəticəni qazanmağa çalışacağıq”.

Baş məşqçi görüşün sonlarında fərqlənə bilməyən Ramil Şeydayev haqqında da danışdı: “Çox əziyyət çəkən və işgüzar futbolçudur. Qol ona daha da inam gətirə bilərdi. Siz necə təəssüfltəndinizsə, mən də o hissləri keçirdim. Ona inanıram. Mənim üçün futbolçunun olduğu kluba hörmət etməsi və işgüzar olması önəmlidir. Ramil də həmin oyunçulardandır”.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***


## BİLDİRİŞ

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi tərəfindən, fizika, kimya və biologiya kabinetləri üçün mobil rəqəmsal laboratoriya avadanlığı dəstlərinin satın alınması məqsədilə 11.08.2021-ci il tarixdə keçirilmiş açıq tender prosedurunun nəticəsinə əsasən, “LABDİSC AZƏRBAYCAN” QSC qalib elan edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***


# Ermənistan ordusunda xaosun yeni dalğası başlayır

*Əvvəli 1-ci səh.*

Hərbi müşahidəçi Narek Nersisyanın sözlərinə görə, 15 il ərzində Ermənistanda bu miqyasda təlim-məşq toplanışları keçirilməyib: “Müdafiə haqqında qanuna əsasən, onların keçirilməsi şərtidir. Lakin müdafiə büdcəsində təlim-məşq toplanışları ilə bağlı ayrıca bir maddə yoxdur. Erməni hərbçiləri deyirlər ki, bir çoxları üçün hazırkı təlim düşərgəsinin miqyası təəccüblüdür. Ancaq deməliyəm ki, fövqəladə bir şey baş vermir, Ermənistan hələ də müharibə vəziyyətindədir”.

Bu yerdə qeyd edək ki, təlimlərin gedişində Ermənistanda döyüş xidmətinin təşkili qaydalarının pozulması nəticəsində ehtiyatda olan hərbçi, çavuş, 1978-ci ildə anadan olan Mkrtiç Ovakimyan ölüb. Hadisənin şərtlərinin tam aydınlaşdırılması üçün araşdırma aparılır. Bundan başqa, Ermənistanın cənub-şərq istiqamətində yerləşən hərbi hissələrdən birində döyüş xidmətinin təşkili qaydalarının pozulması nəticəsində ehtiyatda olan hərbçi yaralanıb. Ümumiyyətlə, erməni mediasının yazdıqlarından belə bəlli olur ki, İkinci Qarabağ müharibəsində darmadağın edilən bu ordudan geri qalan hissədə yenə xaos və anarxiya hökm sürür. Məsələ ilə bağlı “razminfo” saytı yazır ki, Ermənistan, Rusiya və Azərbaycan liderlərinin üçtərəfli Bəyanatının qüvvəyə minməsindən sonra 70-ə yaxın erməni hərbçisi həyatını itirib. Bunlardan 24-ü Azərbaycanla toqquşmalar, mina partlayışları zamanı qeydə alınan döyüş itkiləri olub. Qalanları isə intihar, xəstəlik, avtomobil qəzaları, qətllər və silahlarla davranma qaydalarının pozulması daxil olmaqla, qeyri-döyüş itkiləridir. Bununla yanaşı, 3 hərbçi itkin düşüb. Belə bir vaxtda daha bir məlumat yayılıb ki, Ermənistan ordusunda hökm sürən xaos, nizamnamədən kənar münasibətlər, özbaşınalıq, ruh düşkünlüyü səbəbindən son bir neçə gün ərzində hərbi qulluqçular arasında yeni özünəqəsd faktı qeydə alınıb.

Son vaxtlar Ermənistan ordusunda adi hal alan faktlardan biri də rüşvətxorluqdur. Bu günlər hərbi hissələrin birində ortaya çıxan rüşvətxorluq faktı böyük narazılığa səbəb olub. Belə ki, Ararat vi-



layətinin Armaş qəsəbəsində yerləşən hərbi hissədə qulluq edən hərbçilər Edqar Zavtilyan, Artur Volodyan, Qriqori Qriqoryandan ordu sıralarından tərxis olunmaları üçün böyük miqdarda rüşvət tələb edildiyi bildirilib. Hərbi qulluqçular hələlik hüquq mühafizə orqanlarına müraciət etməsələr də, yaxın vaxtlarda ehtiyata buraxılmasalar, rüşvət tələb edən şəxs barədə hərbi prokurorluğa ərizə yazacaqları haqda komandanlığı xəbərdar ediblər. Bundan əvvəl də Ermənistan ordusunun hərbi hissələrindən birində xidmət edən iki hərbi qulluqçunun rüşvət əvəzində məzuniyyətə getməsi faktının ortaya çıxması hərbçilərin valideynləri arasında böyük narazılıqlara səbəb olmuşdu. Rüşvət faktı əsgərlərin məzuniyyətdən gec qayıtmalarının üstünün açılması zamanı müəyyən edilmişdi. Belə ki, əsgər Nver Danielyan və İsxan Sarkisyan rüşvət verərək məzuniyyətə gediblərmiş. Hərbi hissəyə qayıdarkən hərbi polis tərəfindən sənədlərin yoxlanılması zamanı onların məzuniyyətdən bir neçə gün gec qayıtdıqları məlum olub. Hərbçilərin hərbi xidmətdən yayınmaları ilə bağlı məsələ qaldırılarkən, onların rüşvət qarşılığında məzuniyyətə getdikləri aşkarlanıb.

Onu da qeyd edək ki, 44 günlük müharibədən sonra Ermənistan ordusundan təcili surətdə tərxis edilərək ölkədən çıxıb getmək istəyənlərin sayı gündən-günə artır. Bu, həm Azərbaycan Ordusunun parlaq qələbəsi nəticəsində Ermənistan silahlı qüvvələrində yaranan xaos, hərc-mərclik, özbaşınalıq, ruh düşkünlüyü, həm də son vaxtlar Ermənistan tərəfinin sərhəd rayonlarında vəziyyəti gərginləşdirmək məqsədilə törətdiyi təxribatlarla əlaqədardır. Digər məlumata görə, hərbi həkimlərin səhlənkarlığı səbəbindən Ermənistan silahlı qüvvələrinin hərbi hissələrində COVID-19 virusuna yoluxma halları xeyli artıb.

Ölkədə yaşanan demoqrafik problem səbəbindən ordunun şəxsi heyətlə təminatı isə indi daha sürətlə pisləşməkdə davam edir. Sərhədə göndərməyə lazımi sayda resurs yoxdur. Artıq Ermənistan rəhbərliyi də yaxşı bilir ki, həqiqi hərbi xidmətə çağırışla silahlı qüvvələri komplektləşdirmək olmur. Digər tərəfdən, orduda yaranan xaos səbəbindən gənclərin silahlı qüvvələrdə xidmətdən yayınması adi hal alır. Belə vəziyyətdə ordudan yayınanların sayının artması bununla bağlı qaldırılan cinayət işlərinin də sayını çoxaldır. Bir sözlə, Ermənistan ordusunda xaosun yeni dalğası başlayır.

***E.CƏFƏROV,***
***“Azərbaycan”***

## İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti “Azərbaycan Metrologiya İnstitutu” PHŞ *açıq tender elan edir*

Fiziki-kimyəvi və optik fizika ölçmə vasitələrinin yoxlanılması və kalibrlənməsi laboratoriyası üçün kalibrlənmə sertifikatları ilə birgə ölçmə vasitəsi və standart nümunələrin satın alınması.

Tender iştirakçıları “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununa uyğun olaraq yuxarıda göstərilən satınalma predmeti üzrə öz tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron formada təqdim etməlidirlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir:

- aşağı qiymət, yüksək keyfiyyət, podratçının bu sahədə texniki imkanları və səriştəsi.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Görüləcək işlər satınalma müqaviləsinin qüvvəyə mindiyi gündən 40 bank günü ərzində icra edilməli və hazır məhsul satınalan təşkilata onun inzibati binasında təhvil verilməlidir.

Maraqlananlar 50 manat məbləğində iştirak haqqını “ASAN Ödəniş” vasitəsilə köçürdükdən sonra Əsas şərtlər toplusunu internet Portalı vasitəsilə elektron qaydada ala bilərlər.

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba ödəməlidirlər:

**Təşkilatın adı: İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti**
**“Azərbaycan Metrologiya İnstitutu” PHŞ**
**VÖEN: 1403750111**
**Bank rekvizitləri: Bank: Beynəlxalq Bankın Qaradağ filialı**
**VÖEN: 9900001881**
**KOD 805647**
**M/h : AZ03NABZ01350100000000002944**
**SWIFT: IBAZAZ2X**
**H/H : AZ94IBAZ38090019446268404203**

Tenderdə iştirak haqqı heç bir halda geri qaytarılmır. Tenderdə iddiaçı kimi iştirak etmək istəyənlər Portalda tələb olunan sənədlər bölməsi üzrə aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*-iddiaçının tam adını, onun hüquqi statusunu əks etdirən hüquqi sənədləri və rekvizitləri;*
*-iddiaçının son bir ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
*-iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatlarının surəti, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında arayış;*
*-vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin mövcud olmaması barədə müvafiq vergi orqanından arayış;*
*-tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*-tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 30 bank günü güvvədə olmalıdır);*
*-malgöndərənin ixtisaslarını təsdiq edən sənədlər (malgöndərənin təcrübəsi və fəaliyyət müddəti barədə, kadr potensialı və işçi qüvvəsi haqqında izahlı arayış, malgöndərənin texnoloji avadanlıqların mövcudluğu haqqında arayış və təsdiqedici sənədlər).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır.

İddiaçılar öz təkliflərini Əsas şərtlər toplusunda göstərilən müddəalara uyğun hazırlamalı, iddiaçının ixtisas göstəriciləri “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun 6.2-ci maddəsinin tələblərinə uyğun olmalıdır. İxtisas göstəriciləri qeyd edilən tələblərə uyğun olmayan malgöndərənlərin təklifləri tenderdən kənarlaşdırılacaqdır.

Əlaqələndirici şəxs kimi komissiyanın üzvü Naciyə Məmmədova təyin edilir.

İddiaçıların tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlana bilər.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **08 oktyabr 2021-ci il saat 12:00-dək,** tender təklifi və bank təminatını isə **18 oktyabr 2021-ci il saat 12:00-dək** Portal vasitəsilə təqdim etməlidirlər.

Təkliflər **19 oktyabr 2021-ci il saat 12:00-da** açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

***Tender komissiyası***

## İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti “Azərbaycan Metrologiya İnstitutu” PHŞ *açıq tender elan edir*

Təzyiq, sərf və həcm ölçmə vasitələrinin yoxlanılması və kalibrlənməsi laboratoriyası üçün kalibrlənmə sertifikatları ilə birgə ölçmə vasitələrinin satın alınması.

Tender iştirakçıları “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununa uyğun olaraq yuxarıda göstərilən satınalma predmeti üzrə öz tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron formada təqdim etməlidirlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir:

- aşağı qiymət, yüksək keyfiyyət, podratçının bu sahədə texniki imkanları və səriştəsi.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Görüləcək işlər satınalma müqaviləsinin qüvvəyə mindiyi gündən 40 bank günü ərzində icra edilməli və hazır məhsul satınalan təşkilata onun inzibati binasında təhvil verilməlidir.

Maraqlananlar 70 manat məbləğində iştirak haqqını “ASAN Ödəniş” vasitəsilə köçürdükdən sonra Əsas şərtlər toplusunu internet Portalı vasitəsilə elektron qaydada ala bilərlər.

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba ödəməlidirlər:

**Təşkilatın adı: İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti**
**“Azərbaycan Metrologiya İnstitutu” PHŞ**
**VÖEN: 1403750111**
**Bank rekvizitləri: Bank: Beynəlxalq Bankın Qaradağ filialı**
**VÖEN: 9900001881**
**KOD: 805647**
**M/h : AZ03NABZ01350100000000002944**
**SWIFT: IBAZAZ2X**
**H/H: AZ94IBAZ38090019446268404203**

Tenderdə iştirak haqqı heç bir halda geri qaytarılmır. Tenderdə iddiaçı kimi iştirak etmək istəyənlər Portalda tələb olunan sənədlər bölməsi üzrə aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*-iddiaçının tam adını, onun hüquqi statusunu əks etdirən hüquqi sənədləri və rekvizitləri;*
*-iddiaçının son bir ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
*-iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatlarının surəti, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında arayışı;*
*-vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin mövcud olmaması barədə müvafiq vergi orqanından arayış;*
*-tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*-tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 30 bank günü güvvədə olmalıdır);*
*-malgöndərənin ixtisaslarını təsdiq edən sənədlər (malgöndərənin təcrübəsi və fəaliyyət müddəti barədə, kadr potensialı və işçi qüvvəsi haqqında izahlı arayış, malgöndərənin texnoloji avadanlıqların mövcudluğu haqqında arayış və təsdiqedici sənədlər).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır.

İddiaçılar öz təkliflərini Əsas şərtlər toplusunda göstərilən müddəalara uyğun hazırlamalı, iddiaçının ixtisas göstəriciləri “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun 6.2-ci maddəsinin tələblərinə uyğun olmalıdır. İxtisas göstəriciləri qeyd edilən tələblərə uyğun olmayan malgöndərənlərin təklifləri tenderdən kənarlaşdırılacaqdır.

Əlaqələndirici şəxs kimi komissiyanın üzvü Naciyə Məmmədova təyin edilir.

İddiaçıların tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlana bilər.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **08 oktyabr 2021-ci il saat 17:00-dək,** tender təklifi və bank təminatını isə **18 oktyabr 2021-ci il saat 17:00-dək** Portal vasitəsilə təqdim etməlidirlər.

Təkliflər **19 oktyabr 2021-ci il saat 17:00-da** açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

***Tender komissiyası***

## İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti “Azərbaycan Metrologiya İnstitutu” PHŞ *açıq tender elan edir*

Kütlə, həndəsi və mexaniki ölçmə vasitələrinin yoxlanılması və kalibrlənməsi laboratoriyası üçün kalibrlənmə sertifikatları ilə birgə ölçmə vasitələrinin satın alınması.

Tender iştirakçıları “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununa uyğun olaraq yuxarıda göstərilən satınalma predmeti üzrə öz tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron formada təqdim etməlidirlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir:

- aşağı qiymət, yüksək keyfiyyət, podratçının bu sahədə texniki imkanları və səriştəsi.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Görüləcək işlər satınalma müqaviləsinin qüvvəyə mindiyi gündən 40 bank günü ərzində icra edilməli və hazır məhsul satınalan təşkilata onun inzibati binasında təhvil verilməlidir.

Maraqlananlar 150 manat məbləğində iştirak haqqını “ASAN Ödəniş” vasitəsilə köçürdükdən sonra Əsas şərtlər toplusunu internet Portalı vasitəsilə elektron qaydada ala bilərlər.

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba ödəməlidirlər:

**Təşkilatın adı: İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti**
**“Azərbaycan Metrologiya İnstitutu” PHŞ**
**VÖEN: 1403750111**
**Bank rekvizitləri: Bank: Beynəlxalq Bankın Qaradağ filialı**
**VÖEN: 9900001881**
**KOD: 805647**
**M/h : AZ03NABZ01350100000000002944**
**SWIFT: IBAZAZ2X**
**H/H : AZ94IBAZ38090019446268404203**

Tenderdə iştirak haqqı heç bir halda geri qaytarılmır. Tenderdə iddiaçı kimi iştirak etmək istəyənlər Portalda tələb olunan sənədlər bölməsi üzrə aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*-iddiaçının tam adını, onun hüquqi statusunu əks etdirən hüquqi sənədləri və rekvizitləri;*
*-iddiaçının son bir ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
*-iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatlarının surəti, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında arayış;*
*-vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin mövcud olmaması barədə müvafiq vergi orqanından arayış;*
*-tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*-tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 30 bank günü güvvədə olmalıdır);*
*-malgöndərənin ixtisaslarını təsdiq edən sənədlər (malgöndərənin təcrübəsi və fəaliyyət müddəti barədə, kadr potensialı və işçi qüvvəsi haqqında izahlı arayış, malgöndərənin texnoloji avadanlıqların mövcudluğu haqqında arayış və təsdiqedici sənədlər).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır.

İddiaçılar öz təkliflərini Əsas şərtlər toplusunda göstərilən müddəalara uyğun hazırlamalı, iddiaçının ixtisas göstəriciləri “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun 6.2-ci maddəsinin tələblərinə uyğun olmalıdır. İxtisas göstəriciləri qeyd edilən tələblərə uyğun olmayan malgöndərənlərin təklifləri tenderdən kənarlaşdırılacaqdır.

Əlaqələndirici şəxs kimi komissiyanın üzvü Naciyə Məmmədova təyin edilir.

İddiaçıların tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlana bilər.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **08 oktyabr 2021-ci il saat 10:00-dək,** tender təklifi və bank təminatını isə **18 oktyabr 2021-ci il saat 10:00-dək** Portal vasitəsilə təqdim etməlidirlər.

Təkliflər **19 oktyabr 2021-ci il saat 10:00-da** açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

***Tender komissiyası***

## İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti “Azərbaycan Metrologiya İnstitutu” PHŞ *açıq tender elan edir*

Temperatur ölçmə vasitələrinin yoxlanılması və kalibrlənməsi laboratoriyası üçün kalibrlənmə sertifikatları ilə birgə ölçmə vasitələrinin satın alınması.

Tender iştirakçıları “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununa uyğun olaraq yuxarıda göstərilən satınalma predmeti üzrə öz tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron formada təqdim etməlidirlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir:

- aşağı qiymət, yüksək keyfiyyət, podratçının bu sahədə texniki imkanları və səriştəsi.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Görüləcək işlər satınalma müqaviləsinin qüvvəyə mindiyi gündən 40 bank günü ərzində icra edilməli və hazır məhsul satınalan təşkilata onun inzibati binasında təhvil verilməlidir.

Maraqlananlar 70 manat məbləğində iştirak haqqını “ASAN Ödəniş” vasitəsilə köçürdükdən sonra Əsas şərtlər toplusunu internet Portalı vasitəsilə elektron qaydada ala bilərlər.

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba ödəməlidirlər:

**Təşkilatın adı: İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti**
**“Azərbaycan Metrologiya İnstitutu” PHŞ**
**VÖEN: 1403750111**
**Bank rekvizitləri: Bank: Beynəlxalq Bankın Qaradağ filialı**
**VÖEN: 9900001881**
**KOD: 805647**
**M/h : AZ03NABZ01350100000000002944**
**SWIFT: IBAZAZ2X**
**H/H: AZ94IBAZ38090019446268404203**

Tenderdə iştirak haqqı heç bir halda geri qaytarılmır. Tenderdə iddiaçı kimi iştirak etmək istəyənlər Portalda tələb olunan sənədlər bölməsi üzrə aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*-iddiaçının tam adını, onun hüquqi statusunu əks etdirən hüquqi sənədləri və rekvizitləri;*
*-iddiaçının son bir ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
*-iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatlarının surəti, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında arayışı;*
*-vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin mövcud olmaması barədə müvafiq vergi orqanından arayış;*
*-tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*-tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 30 bank günü güvvədə olmalıdır);*
*-malgöndərənin ixtisaslarını təsdiq edən sənədlər (malgöndərənin təcrübəsi və fəaliyyət müddəti barədə, kadr potensialı və işçi qüvvəsi haqqında izahlı arayış, malgöndərənin texnoloji avadanlıqların mövcudluğu haqqında arayış və təsdiqedici sənədlər).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır.

İddiaçılar öz təkliflərini Əsas şərtlər toplusunda göstərilən müddəalara uyğun hazırlamalı, iddiaçının ixtisas göstəriciləri “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun 6.2-ci maddəsinin tələblərinə uyğun olmalıdır. İxtisas göstəriciləri qeyd edilən tələblərə uyğun olmayan malgöndərənlərin təklifləri tenderdən kənarlaşdırılacaqdır.

Əlaqələndirici şəxs kimi komissiyanın üzvü Naciyə Məmmədova təyin edilir.

İddiaçıların tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlana bilər.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **08 oktyabr 2021-ci il saat 15:00-dək,** tender təklifi və bank təminatını isə **18 oktyabr 2021-ci il saat 15:00-dək** Portal vasitəsilə təqdim etməlidirlər.

Təkliflər **19 oktyabr 2021-ci il saat 15:00-da** açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası Tender komissiyasının 02 sentyabr 2021-ci il tarixdə “Abadlaşdırma işlərinin satın alınması” üzrə keçirdiyi kotirovka sorğusu prosedurunda fiziki şəxs Hüseynov İmran Talıb oğlu (VÖEN 7400060922) qalib elan edilmişdir.

Qalib iddiaçı ilə 10 sentyabr 2021-ci il tarixdə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi 10 nömrəli Sumqayıt Peşə Liseyinin bazasında Sənaye və Yüksək Texnologiyalar üzrə Sumqayıt Dövlət Peşə Təhsili Mərkəzinin yaradılması üzrə layihə-smeta sənədlərinin hazırlanmasının satın alınması üçün *açıq tender elan edir*

Elektron satınalmada iddiaçı qismində satınalma predmeti üzrə müvafiq təcrübəyə malik mikro, kiçik və orta sahibkarlıq subyektləri iştirak edə bilərlər.

Tenderdə iştirak etmək istəyən malgöndərənlər (podratçılar) **etender.gov.az** dövlət satınalmalarının vahid internet Portalına (Portal) daxil olaraq tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Müqavilənin icrasını təmin etmək üçün malgöndərənlər (podratçılar) lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən iddiaçılar iştirak haqqının ödənişini həyata keçirdikdən sonra tenderin Əsas şərtlər toplusunu əldə edə və müsabiqə üçün müvafiq sənədləri təqdim edə bilərlər.

Tenderdə iştirak haqqı 100 (bir yüz) manatdır. İştirak haqqı heç bir halda geri qaytarılmır. İddiaçılar tenderdə iştirak etmək üçün iştirak haqqını ödədikdən sonra Portal vasitəsilə tender üzrə tələb olunan ilkin sənədləri 08 oktyabr 2021-ci il saat 11:00-a qədər, tender təklifi və bank təminatı sənədlərini isə 18 oktyabr 2021-ci il saat 17:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender təklifləri 19 oktyabr 2021-ci il saat 11:00-da açılacaqdır. İddiaçılar tenderin nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

***QEYD:*** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

*Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi tərəfindən Muxtar Natiq oğlu Kərimlinin adına verilmiş 08.02.2021-ci il tarixli 1994 nömrəli (seriya №-AA 007330) xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.*

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin rəhbərliyi, deputatlar, Parlament Aparatının və İşlər İdarəsinin kollektivləri Milli Məclisin deputatı Əziz Ələkbərova anası

**NAZLI XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Lökbatan Tibb Mərkəzinin direktoru Elçin Hüseynov Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyliyə anası

**SVETLANA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının rektorluğu və kollektivi iş yoldaşları

**ŞƏRAFƏDDİN ŞƏRİFOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Prokurorluğunun rəhbərliyi və kollektivi İmişli rayon prokuroru Valeh Səmədova anası

**MEHRİBAN XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Təlatüm Quliyev və Xanlar Fətiyev ailə üzvləri ilə birlikdə “Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyətinin birinci vitse-prezidenti Sabir İlyasova qardaşı

**VAQİF İLYASOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 4985
Sifariş 1700
Qiyməti 40 qəpik